RİSALEYE-NEVİN KİTABI
ƏSASINDA TƏRTİB RDİLMİŞ

200 SUAL-CAVAB

TƏRTİB EDƏN: FƏYYAZ RƏFİQ

بسم الله الرحمن الرحیم

SUAL–CAVAB ٢٠٠

:Müəllif

Fəyyaz Rəfiq

:Çap nəşriyyat

Şəhriyar

:Digital nəşriyyat

İsfəhan Qaimiyyə adına komputer araşdırmalar mərkəzi

Mündəricat

SUAL–CAVAB ۲۰۰

KİTAB HAQQINDA

Kitabın adı:.......................۲۰۰ Sual–cavab

Tərtib edən:..............................Fəyyaz Rəfiq

Nəşr edən:.....................................Şəhriyar

Çap tarixi:..۲۰۰۵

Çap növbəsi:....................................Birinci

Tiraj:..۳۰۰۰

səh:۱

dən ۱۰ kimi olan suallar–۱

?Sual ۱: Təqlid nədir

.Cavab: Təqlid müctəhidin göstərişinə əməl etməkdir

?Sual ۲: Təqlid kimə vacibdir

:Cavab: Dini hökmlərə münasibətdə insanlar üç qismə bölünür

;(Müctəhid (fiqh elmində ictihad dərəcəsinə çatmış şəxs .۱

;(Möhtat (bütün hökmlərdən xəbərdar olub, ehtiyat yolunu tutan şəxs .۲

.Müctəhid və möhtat olmayanlar–müqəllid .۳

.Əgər bir şəxs nə müctəhid, nə də möhtatdırsa, müctəhidə təqlid etməlidir

?Sual ۳: Kimə təqlid edilməlidir

Cavab: Doqquz şərtin ödəndiyi «cameüş-şərait» müctəhidə təqlid etmək olar. Bu doqquz şərtlə tanış olaq: ۱. Kişi; ۲. Baliğ (həddi-büluğ); ۳. Aqil (ağıllı); ۴. ۱۲ imamçı şiə; ۵. Halalzadə (qanuni nikahdan doğulmuş); ۶. Diri; ۷. Adil (ədalətli); ۸. Vacib ehtiyata .əsasən dünyaya həris olmayan; ۹. Başqa müctəhidlərdən daha elmli–ə'ləm olan

?Sual ۴: Nədə təqlid edilməlidir

Cavab: İslam dini üsuli-din (inamlar), əxlaq və fürui-din (əməllər) bölmələrindən ibarətdir. Əqidə məsələlərində (üsuli-din) təqlid etmək olmaz. Yalnız əməli hökmlərə .(fürui-din) təqlid edilməlidir

?Sual ۵: Əməli hökmlər neçə qisimdir

:Cavab: Hökmlər beş qisimdir

Vacib–hökmən yerinə yetirilməli olan göstəriş. Bu hökmü tərk etmək günahdır. . ۱
.Məsələn, həddi-büluğa çatdıqda namaz qılmaq vacibdir

Müstəhəb–belə bir hökmü yerinə yetirmək bəyənilmişdir. Onu tərk etmək günah . ۲
.sayılmır. Məsələn, salam vermək müstəhəbdir, yə’ni bəyənilmiş bir hökmdür

Haram–haram hökmü hər hansı işi qəti şəkildə qadağan edir. Haram iş görən şəxs .۳
.üçün axirət əzabı var. Məsələn, yalan danışmaq

Məkruh–bir işin məkruh olması barədə hökm varsa, həmin işi görməmək daha . ۴
yaxşıdır. Amma məkruh iş görən adam üçün axirət cəzası yoxdur. Məsələn, şəkil olan
.otaqda namaz qılmaq məkruhdur

Mübah–mübah işin görülüb-görülməməyinin dini baxımdan fərqi yoxdur. Məsələn, .۵
halal qidaların qəbulu nə vacibdir, nə müstəhəbdir, nə haramdır, nə də məkruh. Bu iş
.insanın öz ixtiyarındadır

?Sual ۶: Büluğ (yetkinlik) həddinin hansı əlamətləri var

.Cavab: Yetkinlik həddinin, həddi-büluğun üç əlaməti var

Cinsiyyət üzvünün üst hissəsində cod tüklərin bitməsi; ۲. İstənilən bir halda cinsiyyət .۱
üzvündən spermanın (məni) xaric olması. ۳. Qəməri təqvimlə oğlanların ۱۵, qızların isə ۹
.yaşının tamam olması

?Sual ۷: Cameüş-şərait müctəhidi hansı yolla tanımaq olar

:Cavab: Cameüş-şərait müctəhidi üç yolla tanımaq olar

səh:۴

;İnsanın özünün əmin olması .١

Müctəhid və ə’ləmi tanıya bilən iki ədalətli alimin təsdiqi. Bir şərtlə ki, başqa iki adil .٢ ;alim əvvəlkilərin dediyinə müxalif olmasın

.Müctəhid və ə’ləmi tanıya bilən elm əhlinin dediklərindən əminlik hasil olsun .٣

?Sual ٨: Müctəhidin fitvasını (göstəriş) hansı yolla öyrənmək olar

Cavab: Müctəhidin fitvasını dörd yolla öyrənmək olar: ١. Müctəhidin özündən eşitməklə; ٢. İki adil şəxsdən eşitməklə; ٣. Doğru danışan və e’tibarlı bir şəxsdən .eşitməklə; ۴. Fitvanı e’tibarlı bir risalədə görməklə

?Sual ٩: Dünyasını dəyişmiş müctəhidə təqlid etmək olarmı

Cavab: İlk dəfə təqlidə başlayan şəxs dünyasını dəyişmiş müctəhidə təqlid edə bilməz. Müctəhidin bə’zi fitvalarına əməl edən şəxs həmin müctəhid dünyasını dəyişdikdən sonra da uyğun məsələlərdə ona təqlid edə bilər. Bütün məsələlərdə bir müctəhidə .təqlid edən şəxs həmin müctəhid dünyasını dəyişdikdən sonra ona təqliddə qala bilər

?Sual ١٠: Hər hansı bir şəxsin təqlidsiz yerinə yetirdiyi əməllər qəbuldurmu

Cavab: Təqlidsiz yerinə yetirilmiş əməl o vaxt məqbuldur ki, insan həqiqi vəzifəsini yerinə yetirdiyinə əmin olsun. Təqlidsiz yerinə yetirilmiş əməl sonradan təqlid edilən müctəhidin fitvalarına uyğun olduqda məqbuldur. Ehtiyata yaxın halda yerinə .yetirilmiş əməllər də düzgün sayılır

dən ۲۰ kimi olan suallar–۱۱

?Sual ۱۱: Müctəhidin neçə qisim nəzəri (göstərişi) ola bilər

:Cavab: Müctəhidin dörd qisim nəzəri ola bilər

Hökm–Müctəhidin müəyyən bir işin vacib və haram olduğunu bildirməsi. Məsələn, .۱ .hökm verilir ki, sabah şəvval ayının başlanğıcı, “fitr” bayramı günüdür

Fitva–Müctəhidin öz nəzərini ümumi şəkildə bəyan etməsi. Məsələn, fitva verilir ki, .۲ .öhdəsində vacib (qəza) oruc olan şəxsin müstəhəb orucu batildir

Vacib ehtiyat–əvvəlində və ya arxasınca fitva verilməmiş nəzər. Məsələn, müctəhid .۳ «təsbihati-ərbəə»nin üç dəfə deyilməsini vacib ehtiyat sayır. Müqəllid bu göstərişə əməl .etməlidir

Müstəhəb ehtiyat–əvvəlində və ya arxasınca fitva verilmiş nəzər. Məsələn, . ۴ müctəhid fitva verir ki, murdarlanmış qab kürr suda yuyulsa pak olar. Amma sonra .həmin qabın üç dəfə yuyulmasını müstəhəb ehtiyat sayır

?Sual ۱۲: Su neçə qisim olur

Cavab: Su iki qisim olur: müzaf su və mütləq su. Qarpız suyu, gülab kimi qatışıq sulara .müzaf su deyilir

Mütləq su isə beş növdür: ۱. Kürr su (eni, uzunu və hündürlüyü üç qarış yarım həcmində su, təxminən ۳۸۶ kq); ۲. Yağış suyu; ۳. Quyu suyu; ۴. Qəlil su (kürr sudan az .su); ۵. Axar su

?Sual ۱۳: Müzaf suyun hansı xüsusiyyətləri var

Cavab: Müzaf su murdarı pak etmir, bu su ilə alınan dəstəmaz və verilən qüsl batildir. .Müzaf suya bir zərrə murdar düşsə, su murdar olar

?Sual ۱۴: Kürr su murdarlana bilərmi

Cavab: Əgər kürr suya sidik və ya qan kimi murdar şeylər toxunsa iyi, rəngi, dadı .dəyişmədiyi təqdirdə, bu su pakdır

Sual ۱۵: Əgər insan suyun kürr, yoxsa qəlil olduğuna əmin ola bilməsə, onun vəzifəsi ?nədir

Cavab: Əvvəlcə kürr həddində olmuş suyun hazırda kürr olub-olmadığı şübhə doğursa, onu kürr hesab etmək lazımdır. Əvvəlcə kürr olmamış suyun hazırda kürr olub-olmadığı şübhə doğursa, onu kürr hesab etmək olmaz. Su o zaman kürr hesab oluna bilər ki, ya insan özü buna əmin olsun, ya da suyun kürr olduğunu iki ədalətli .şəxs təsdiq etsin

?Sual ۱۶: Az suyun hansı xüsusiyyətləri var

Cavab: Az su (qəlil) murdar şeyə toxunduqda murdar olur və ya murdar şey az suya .toxunduqda onu murdarlayır

?Sual ۱۷: Hansı hallarda nəcis (ğait) xaric olan üzv yalnız su ilə pak olur

:Cavab: Üç halda nəcisin məxrəcini su ilə yumaq vacibdir

;Nəcislə birlikdə digər murdar şey (məs. qan) gəldikdə .۱

;Xaricdən nəcisin məxrəcinə başqa murdar şey (məs. sidik) əlavə olduqda .۲

.Nəcisin məxrəci adi həddən çox bulaşdıqda .۳

?Sual ١٨: İdrardan (sidik) sonra tənasül üzvü necə pak edilir

Cavab: Tənasül üzvü yalnız su ilə pak olur. Sidik təmizləndikdən sonra məxrəci bir dəfə yumaq kifayətdir. Amma məsanədən qeyri-təbii idrar edənlər və qadınlar vacib ehtiyata əsasən, iki dəfə yumalıdırlar.

?Sual ١٩: Nəcisin məxrəci necə pak edilir

Cavab: Nəcisin məxrəcini üç yolla pak etmək olar: ١. Su ilə; su ilə yuduqda nəcis zərrələri qalmamalıdır, amma rəng və iy qalsa, eybi yoxdur. Birinci dəfə yuduqda nəcis zərrələri qalmazsa, ikinci dəfə yumaq lazım deyil.

Daş və kərpic kimi şeylərlə; daş və kərpic kimi şeylərlə məxrəcin tam təmizlənməsi .٢ şübhə yaratsa da (məhəlle-təəmmül), bu halda namaz qılmaq olar. Bu sayaq təmizlənmiş üzvə bir şey toxunsa murdarlanmaz.

.Parça ilə; parça vasitəsi ilə nəcis bir dəfə təmizlənsə, kifayətdir .٣

Amma sümük, peyin, eləcə də, üzərində Allahın adı yazılmış (ehtiramı vacib olan) şeylərlə məxrəc təmizlənərsə, onun pak olması şübhəlidir (məhəlle-təəmmül) və vacib ehtiyata əsasən bu halda namaz qılmaq olmaz.

?Sual ٢٠: İstibra nədir

Cavab: İstibra (sidik kanalında qalan sidiyin təmizlənməsi) müstəhəb bir əməldir. Kişilər idrardan sonra (ğaitin məxrəci murdar olarsa, əvvəlcə onu paklamaq şərtilə) əvvəl üç dəfə sol əlin orta barmağını ğaitin məxrəcindən alətin kökünədək, sonra üç dəfə

də baş barmağı alətin üstünə, işarə barmağı isə alətin altına qoyub, xətnə (sünnət) .yerinədək çəkir. Daha sonra üzvün başını üç dəfə sıxıb yuyur

dən ۳۰ kimi olan suallar–۲۱

?Sual ۲۱: Sidik məxrəcindən hansı mayelər gələ bilər

:Cavab: Sidik məxrəcindən beş növ maye gələ bilər

.Sidik .۱

Məni (sperma). Əgər insandan məni xaric olsa, qüsl etməlidir. Müstəhəbdir ki, . ۲ .qüsldən qabaq idrar etsin

.Məzi–mazaqlaşmadan sonra gələn bu maye pakdır .۳

.Vəzi–bu mayə bə’zən mənidən sonra gəlir. Əgər ona sidik qarışmasa pakdır .۴

Vədi–bə’zən sidikdən sonra gələn mayedir. Əgər sidiyə qarışmasa pakdır. İstibra .۵ etmiş şəxs belə bir maye gördükdə şəkk etsə ki, bu sidikdir, yoxsa başqa maye, onu .pak hesab etməlidir

Sual ۲۲: İstibradan sonra insandan elə bir maye gəlsə ki, bu mayenin sidik və ya məni ?olması bilinməsə, o nə etməlidir

Cavab: Əgər belə bir rütubət dəstəmaz aldıqdan sonra görünsə, ehtiyata görə qüsl vermək vacibdir. Əgər dəstəmaz almamış belə bir rütubət görünsə, dəstəmaz almaq .kifayətdir

Əgər istibra etməmiş bir şəxs dəstəmaz almamışdan qabaq belə bir rütubət görsə, .təkcə dəstəmaz alsa kifayətdir

?Sual ۲۳: İslam şəriətində neçə şey murdar sayılır

Cavab: İslam şəriətində on bir şey murdar sayılır: sidik, nəcis, məni, atıcı qanı olan .heyvanın ölüsü, qan, it, donuz, kafir, spirtli içki (şərab), pivə, nəcis yemiş dəvənin təri

?Sual ۲۴: Hansı canlıların sidiyi və nəcisi murdardır

Cavab: İnsanın və əti haram olan atıcı qanlı heyvanların nəcisi və sidiyi murdardır. Amma əti olmayan milçək kimi kiçik həşəratların nəcisi pakdır. Əti haram olan quşların .nəcisi də murdardır

?Sual ۲۵: Qeyri-müsəlman ölkələrdə istehsal olunmuş ətriyyat məhsulları pakdırmı

Cavab: Xaricdən gətirilmiş ətriyyat məhsullarının murdar olduğu mə'lum deyilsə, onlar .pak hesab olunur

?Sual ۲۶: Xaricdə istehsal olunmuş maye dərman preparatları pakdırmı

.Cavab: Murdar olduğu mə'lum deyilsə, pakdır

?Sual ۲۷: Hansı canlıların qanı murdardır

Cavab: Atıcı qanı olan bütün canlıların qanı murdardır. Əti halal olan heyvan şər'i qaydada kəsildikdən sonra bədənindəki qan, kəsilmiş damarlardan kifayət qədər .axarsa, qalan qan pakdır. Yumurtanın içindəki qan murdar deyil

?Sual ۲۸: Əgər toyuq yumurtasında qan varsa, onu yemək olarmı

Cavab: Yumurtadakı qan onun sarısı ilə qatışdırıldıqda itib gedərsə, həmin yumurtanı .yemək olar

?Sual ۲۹: Kafir kimdir

Cavab: Allahı inkar edən, Ona şərik qoşan, həzrət Məhəmmədin (s) peyğəmbərliyinə .inanmayan, namaz və oruc kimi zəruri dini hökmləri inkar edən kəs kafirdir

?Sual ٣٠: On iki imamı qəbul etməyən kəs müsəlmandırmı

Cavab: Əgər bir müsəlman on iki imamdan birinə qarşı düşmən münasibətdə olarsa, o .murdar sayılır

dən ٤٠ kimi olan suallar–٣١

?Sual ٣١: Şərab murdardırmı

.Cavab: Şərab və insanı məst edən bütün mayelər murdardır

?Sual ٣٢: Boya işlərində istifadə olunan spirtli mayelər murdardırmı

.Cavab: Əgər insan həmin mayelərin məstedici şeylərdən düzəldiyini bilmirsə pakdır

?Sual ٣٣: Qaynadılmış, buxar dəymiş xurma, kişmiş halaldırmı

.Cavab: Halaldır, amma müstəhəb ehtiyata görə çəkinmək lazımdır

?Sual ٣٤: Bir şeyin murdar olması necə sübuta yetir

:Cavab: Hər hansı bir şeyin murdar olması üç yolla sübuta yetir

.İnsan özü bir şeyin murdar olduğuna əmin olmalıdır .١

Əgər restoranda və ya hansı başqa bir yerdə bir şeyin murdar olmasına şübhə varsa, ;bu şübhəyə e’tina olunmamalıdır

;Bir şeyin sahibi həmin şeyin murdar olduğunu dedikdə .٢

İki adil kişi bir şeyin murdar olduğunu dedikdə. Bir adil şəxs müəyyən şeyin .٣ .murdarlığını bildirdikdə vacib ehtiyata əsasən çəkinmək lazımdır

Sual ٣٥: Əgər qabdakı mayeyə qan damsa, üst hissədən bir qədər boşaldılsa, qalan ?hissə pak sayılarmı

.Cavab: Mayenin bir nöqtəsi murdar olduqda bütün maye murdar sayılır

?Sual ٣۶: Qonağın bədəni və paltarı evdəki murdar bir şeyə toxunsa, nə etmək lazımdır

Cavab: Qonağın bədəni və ya paltarı evdəki murdar bir şeyə toxunsa, onu bildirmək .lazım deyil

Sual ٣٧: Kimyəvi təmizləmə məntəqələrinə murdarlanmış paltarlar da verilə bilər. Bütün paltarların bir maşında yuyulduğunu nəzərə alsaq, məntəqədə təmizlənmiş ?paltarı pak hesab etmək olarmı

.Cavab: Məntəqədə yuyulan və təmizlənən paltarlar pakdır

?Sual ٣٨: İslam şəriətində neçə pakedici var

Cavab: İslam şəriətində on pak edici var: su, torpaq, günəş, istihalə (murdar şeyin cinsinin dəyişməsi ilə paka çıxması), intiqal (qanın atıcı qanlı bədəndən digər bədənə keçməsi), İslam dini, təbəiyyət (bir murdarın paka çıxması ilə başqa murdarın paka çıxması), murdarın əslinin aradan getməsi, murdar yemiş heyvanın istibrası, .müsəlman qeyb olduqda ona aid murdar şeyin pak edilməsi ehtimalı

?Sual ٣٩: Bütün sular pak edici sayılırmı

:Cavab: Su dörd şərtlə murdarı pak edir

;Mütləq, xalis olsun .۱

;Pak olsun .۲

Murdar şeyi yuduqda su bulaşmasın, murdar vasitəsi ilə suyun rəngi, iyi dadı . ۳ ;dəyişməsin

.Murdar şeyi suya çəkdikdən sonra suda murdarın eyni, əsli qalmasın .۴

?Sual ۴۰: Murdar əl yuyulmuş sabun pakdırmı

Cavab: Murdar əl yuyulmuş sabun kürr suya batırıldıqda və ya axar suya çəkildikdə .pak olur. Bir şərtlə ki, onun daxili murdarlanmamış qalsın

dən ۵۰ kimi olan suallar–۴۱

?Sual: ۴۱: Murdarlanmış düyünü və ya əti necə paka çıxarmaq olar

Cavab: Murdarlanmış düyünü və ya əti bir qaba qoyub, həmin qabı üç dəfə su ilə .doldurub boşaltsanız, qabdakı düyü və ya ət pak olar

?Sual ۴۲: Hansı murdar şeyləri bir dəfə suya çəkmək kifayət edər

Cavab: Murdar şeydən murdarın eyni, əsli təmizləndikdən sonra onu kürr və ya axar suda bir dəfə suya çəkmək kifayətdir. Başqa yemək yeməyən südəmər körpənin sidiyi də bir dəfə suya çəkilməklə pak olur. Bir şərtlə ki, körpə donuz südü içməmiş olsun. Sidiklə murdarlanmış paltardan savayı şeylərin qəlil su ilə iki dəfə suya çəkmək lazımdır. Sidiklə murdarlanmış şey sidik təmizləndikdən sonra iki dəfə suya çəkilsə, ehtiyata əməl edilmiş olar. Şərabla murdarlanmış qabı qəlil su ilə üç dəfə suya çəkmək lazımdır. Yeddi dəfə suya çəkilsə, daha yaxşıdır. Donuzun maye içdiyi qab isə yeddi .dəfə suya çəkilməlidir

?Sual ۴۳: Ayaqqabının murdarlanmış altını necə təmizləmək olar

Cavab: Ayaqqabının murdarlanmış altını təmizləmək üçün on beş addım yol getmək .kifayətdir. Bir şərtlə ki, torpaq pak, quru olsun

?Sual ۴۴: Günəş hansı şeyləri paka çıxarır

Cavab: Günəş vasitəsi ilə altı şey paka çıxır: torpaq, bina, tikilidə istifadə olunmuş qapı-.pəncərə, divara çalınmış və binadan sayılan mıx, murdar həsir, ağac və otlar

?Sual ۴۵: Ağcaqanadın qanı pakdırmı

Cavab: Əgər bir şəxs ağcaqanadı öz bədənində öldürsə və ondan çıxan qanın öz qanı olduğunu bilməsə, qan pakdır. Amma ağcaqanadın sancması ilə onun öldürülməsi .arasındakı fasilə az olsa və düşünülsə ki, bu elə insanın öz qanıdır bu qan murdardır

?Sual ۴۶: İslam dini hansı əsasla pakedici sayılır

Cavab: İslam şəriətində kafir murdar sayılır. Əgər o şəhadət kəlmələrini deyib, .müsəlman olarsa, paka çıxar

?Sual ۴۷: Təbəiyyət nə deməkdir

Cavab:Təbəiyyət pakedicilərdən biridir. Məsələn, şərab sirkəyə döndükdə pak olur. Bu vaxt onun qabı da paka çıxır. Şərabın paka çıxması ilə onun qabının da paka çıxması .təbəiyyət adlanır

?Sual ۴۸: Murdar yemiş heyvanın istibrası nə deməkdir

Cavab: İnsan nəcisi yeməyə adət etmiş heyvanın sidiyi və nəcisi murdardır. Onların paka çıxarılması üsulu

istibra adlanır. Heyvanların istibrası odur ki, onlar bir müddət saxlanıb, yalnız pak qidalarla yemlənsinlər. Nəcis yemiş dəvəni qırx gün inəyi iyirmi gün qoyunu on gün, .ördəyi beş gün, ev toyuğunu üç gün istibra məqsədi ilə saxlamaq lazımdır

?Sual ۴۹: Dəstəmaz necə alınır

Cavab: Əvvəlcə, alının tük bitdiyi yerdən çənənin aşağısınadək üz yuyulur. Üz baş barmaqla orta barmaq miqdarında yuyulmalıdır. Üzdən sonra əvvəlcə sağ, sonra sol əl dirsəkdən barmaqların ucunadək yuyulur. Hər iki əl yuyulduqdan sonra əlin təri ilə başa məsh çəkilir. Məshin sağ əllə, yuxarıdan aşağıya çəkilməsi vacib deyil. Daha sonra əldə qalmış dəstəmaz təri ilə ayaq barmaqlarının başından ayağın üzünün .dikələn yerinədək məsh çəkilir

?Sual ۵۰: Dəstəmazın düzgün sayılması üçün hansı şərtlər var

.Cavab: Dəstəmazın düzgün sayılması üçün on üç şərt var

;Dəstəmaz suyu pak olmalıdır .۱

;Dəstəmaz suyu mütləq saf olmalıdır .۲

;Dəstəmaz suyu mübah, halal olmalıdır .۳

;Dəstəmaz suyunun qabı halal olmalıdır .۴

;Dəstəmaz suyunun qabı qızıl və gümüş olmamalıdır .۵

;Dəstəmaz zamanı dəstəmaz üzvləri və məsh yeri pak olmalıdır .۶

;Dəstəmaz və namaz üçü n kifayət qədər vaxt olmalıdır .۷

;Dəstəmaz Allahın razılığı, ona yaxınlıq məqsədi ilə alınmalıdır .۸

;Dəstəmaz tərtibi qaydada, ardıcıl alınmalıdır .۹

;Dəstəmazdakı əməllər ard-arda yerinə yetirilməlidir .۱۰

;İnsana başqa biri dətəmaz ala bilməz .۱۱

;Dəstəmaz alan şəxsə su zərərli olmamalıdır .۱۲

.Dəstəmaz üzvlərində suyun qarşısını alan maneə olmamalıdır .۱۳

dən ۶۰ kimi olan suallar–۵۱

?Sual ۵۱: İnsan dəstəmaz alıb-almadığı barədə şəkk edirsə, vəzifəsi nədir

Cavab: Əgər namaz gedişində belə bir şəkk olsa, namaz batildir. Əgər namazını bitirdikdən sonra insan şəkk etsə ki, dəstəmaz alıb yoxsa yox, onun namazı .düzgündür. Əgər belə bir şəkk namazdan qabaq baş versə, dəstəmaz almaq vacibdir

?Sual ۵۲: Dəstəmaz nə üçündür

:Cavab: Altı halda dəstəmaz almaq vacibdir

;Meyit namazından savayı bütün namazlar üçün .۱

Yaddan çıxmış səcdə və təşəhhüdü yerinə yetirmək üçün (əgər dəstəmaz .۲ ;(pozulmuşsa

;Kə’bə evinin vacib təvafı üçün .۳

;Əgər dəstəmaz almaq nəzir, əhd edilmişsə .۴

;Bir şəxs Qur’ana toxunmağı nəzir edərkən .۵

Murdarlanmış Qur’an vərəqini suya çəkmək üçün dəstəmaz alınmalıdır. Amma .۶ dəstəmaza məşğulluq Qur’ana hörmətsizlik sayılarsa (vaxt çox gedərsə), Qur’anı suya .çəkmək üçün dəstəmaz almaq lazım deyil

?Sual ۵۳: Qur’an yazılarına toxunmaq olarmı

Cavab: Dəstəmazsız halda Qur’an yazılarına toxunmaq haramdır. Amma tərcümə .olunmuş Qur’anların yazısına toxunmaq olar

?Sual ۵۴: Dəstəmazı nələr batil edir

Cavab: Yeddi şey dəstəmazı batil edir: Sidik, nəcis, nəcis məxrəcindən xaric olan yel, həm gözün görməməyi, həm də qulağın eşitməməyi il müşayiət olunan yuxu, ağılı .başdan alan şeylər, qadınlarda istihazə, cənabət kimi qüsl tələb edən işlər

?Sual ۵۵: Adi vaxtda alınmış dəstəmazla namaz qılmaq olarmı

Cavab: Namazın vaxtından əvvəl təharət məqsədi ilə dəstəmaz almaq olar və bu .dəstəmazla namaz qılmaq mümkündür

?Sual ۵۶: Dəstəmaz üzvlərində yara varsa nə etməli

Cavab: Əgər yaraya suyun zərəri yoxdursa, adi qaydada dəstəmaz alınır. Yox əgər suyun yaraya zərəri varsa yaranın ətrafı yuyulur və onun üzərinə pak bir parça qoyulur, tər əl ilə məsh çəkilir. Əgər yara məsh yerlərindədirsə, məsh yerinin üzərinə pak parça qoyulur və məsh çəkilir. Vacib ehtiyata əsasən təyəmmüm də edilir. Yox əgər yaranın üzərinə parça qoymaq da mümkün deyilsə, dəstəmaz əvəzinə təyəmmüm edilir. Yaxşı olar ki, məshsiz bir dəstəmaz da alınsın (Uyğun surətdə alınan .(dəstəmaz cəbirə dəstəmaz adlanır

Əgər yara bağlıdırsa, onu açmaq mümkün olduqda yara açılır və dəstəmaz alınır. Yaranı açmaq

mümkün deyilsə və onun sarğısı murdardırsa, yaraya toz, su toxunması zərərli .olduqda onun ətrafı yuyulur, murdar sarğının üzərinə pak parça qoyulur, məsh çəkilir

?Sual ۵۷: Əgər təyəmmüm yerində yara varsa, nə etməli

Cavab: Vəzifəsi təyəmmüm olan şəxsin təyəmmüm üzvlərində yara varsa, cəbirə .dəstəmazda olduğu kimi hərəkət etməlidir

?Sual ۵۸: Hansı hallarda qüsl vermək vacibdir

Cavab: Yeddi halda qüsl vermək vacibdir: ۱. İnsan cinsi yaxınlıq və ya məni xaric olması vasitəsi ilə cünub olduqda cənabət qüslü; ۲. Qadınlar üçün heyz qüslü; ۳. Qadınlar üçün nifas qüslü; ۴. Qadınlar üçün istihazə qüslü; ۵. Meyitə toxunma qüslü; ۶. Meyit qüslü;. ۷. .Nəzir, and vasitəsi ilə vacib olan qüsl

?Sual ۵۹: Qüsl hansı qaydada verilir

Cavab: Qüsl iki növdür. Tərtibi qüsl və irtimasi qüsl. Tərtibi qüsldə qüsl vermək niyyəti ilə əvvəlcə baş və boyun, sonra bədənin sağ tərəfi, daha sonra sol tərəfi yuyulur. Bu .ardıcıllıqla verilməyən qüsl batildir

İrtimasi qüsl verən insan qüsl vermək niyyəti ilə tədricən suya batır. Bütün bədən suya .batdıqdan sonra qüsl düzgün sayılır

?Sual ۶۰: Qüsl vermiş şəxs namaz üçün dəstəmaz almalıdırmı

.Cavab: Yalnız cənabət qüslündən sonra namaz üçün dəstəmaz almaq lazım deyil

dən ۷۰ kimi olan suallar–۶۱

?Sual ۶۱: Cünub şəxsə nələr haramdır

:Cavab: Cünub şəxsə beş şey haramdır

Bədənin Qur’an yazısına, eləcə də, Allah adına toxunması. Vacib ehtiyata əsasən, .۱ ;peyğəmbərlərin və imamların da adına toxunmaq olmaz

;Məscidül-hərama və peyğəmbər məscidinə daxil olmaq .۲

Məsciddə dayanmaq (yaddan çıxmış bir şey üçün məscidin bir qapısından daxil olub, .۳ o birindən çıxmaq olar). Vacib ehtiyata əsasən, imamların barigahında da dayanmaq ;olmaz

;Məscidə bir şey qoymaq .۴

.Vacib səcdəsi olan Qur’an surələrini oxumaq .۵

Sual ۶۲: İnsan qüsl verib-vermədiyinə şəkk etsə, vəzifəsi nədir? Əgər şəkk etsə ki, ?qüslü düz verib, yoxsa yox vəzifəsi nədir

Cavab: İnsan şəkk etsə ki, qüsl verib yoxsa yox, qüsl verməlidir. Əgər şəkk etsə ki, .qüslü düzgün verib, yoxsa yox, təkrar qüslə ehtiyac yoxdur

Sual ۶۳: Qüsl vermək və dəstəmaz almaq mümkün olmadıqda təyəmmüm hansı ?qaydada yerinə yetirilir

Cavab: Vəzifəsi təyəmmüm etmək olan şəxs qüsl və ya dəstəmaz əvəzi təyəmmüm etdiyini nəzərdə tutaraq təyəmmüm etdiyi şeyə (torpaq, qum, daş və s.) əllərinin içini qoşa şəkildə vurmalıdır. Sonra hər iki əllərinin içini bütöv alına tük bitən endə .çəkməlidir. Sonda sol əlin içi sağ əlin üstünə, sağ əlin içi sol əlin üstünə çəkilir

?Sual ۶۴: Hansı hallarda dəstəmaz və qüsl əvəzinə təyəmmüm etmək olar

:Cavab: Yeddi halda dəstəmaz və qüsl əvəzinə təyəmmüm etmək olar

;Əgər dəstəmaz və ya qüsl üçün su əldə etmək mümkün deyilsə .۱

Qocalıq, oğru və yırtıcıdan qorxu, su çəkmək üçün qabın olmamağı səbəblərindən .۲ təyəmmüm etmək olar. Su əldə etmək insan üçün məşəqqətə səbəb olduqda da ;təyəmmümə icazə verilir

;Su vasitəsi ilə xəstələnmə, cana zərər təhlükəsi olduqda .۳

Suyun dəstəmaz və ya qüsl üçün işlədiləcəyi təqdirdə ailə-övladın və yaxın .۴ adamların susuz qalacağı və susuzluqdan öləcəyi ehtimal edildikdə. Eləcə də, adətən, yemək üçün başı kəsilməyən at və qatır kimi heyvanların susuz qalacağı ehtimal ;olunduqda

Əgər su yalnız paltarın və bədənin murdarlığını təmizləməyə çatarsa, əvvəlcə paltarı .۵ ;və bədəni paka çıxarmaq lazımdır

;İstifadə üçün halal qab olmadıqda .۶

Dəstəmaz və ya qüsl veriləcəyi təqdirdə namaz vaxtının ötüb keçəcəyi ehtimal .۷ .edildikdə

?Sual ۶۵: Can verən insan (möhtəzir) hansı şəkildə yerləşdirilməlidir

.Cavab: Can verən müsəlman arxası üstə, ayaqlarının altı qibləyə doğru uzadılmalıdır

?Sual ۶۶: Meyitə hansı şəkildə qüsl verilməlidir

Cavab: On iki imamçı şiənin meyit qüslü, kəfənlənməsi, meyit namazı və dəfni hamıya :vacibdir. Meyitə üç qüsl verilir

;Sidr qatılmış su ilə .١

;Kafur qatılmış su ilə .٢

.Xalis, saf su ilə .٣

.Meyit qüslü cənabət qüslü tərtibində verilir

?Sual ۶٧: Meyitə toxunma qüslü nə vaxt vacib olur

Cavab: Meyit qüslü verilməmiş, eləcə də, bədəni soyumuş meyitə toxunan kəs meyitə toxunma qüslü verməlidir. Bədəni soyumamış meyitə toxunan kəsin qüsl verməsi .vacib deyil

?Sual ۶٨: Meyit namazı hansı qaydada qılınır

Cavab: Meyit namazı qılmaq üçün dəstəmaz və qüsl şərt deyil. Bədən və libas pak olmaya da bilər. Meyit üçün namaz qılmaq istəyən şəxs üzü qibləyə dayanmalı və meyit onun qarşısında başı sağ, ayaqları sol tərəf istiqamətində uzadılmalıdır. Meyit namazında beş təkbir var. Meyitə namaz qılan şəxs ayaq üstə durmuş vəziyyətdə bu təkbiri desə kifayətdir: . Meyyit namazının beş təkbiri vardır və əgər onlar aşağıdakı :tərtiblə deyilsə, kifayətdir. Niyyətdən və birinci təkbirdən sonra desin

اَشهَدُ اَن لاَاِلَهَ اِلَّاالله وَاَنَّ مُحَمَّداً رَسُولُ اللهِ

Əşhədu ənla ilahə illəllah və ənnə Muhəmmədən Rəsulullah.” İkinci təkbirdən sonra“ :desin

أَللّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

:Allahummə səlli əla Muhəmmədin və ali-Muhəmməd.” Üçüncü təkbirdən sonra desin“

أَللّهُمَّ اغفِرللمؤمِنِينَ وَالمؤمِنَاتِ

Allahumməğfir lil-mu’mininə vəl-mu’minat.” Dördüncü təkbirdən sonra əgər meyyit“ :kişidirsə, desin

:Allahumməğfir li hazəl-məyyit”; əgər qadın olarsa, desin“

أَللّهُمَّ اغفِر لِهَذهِ المَيِّتِ

.Allahumməğfir li hazihil-məyyit” və sonra ٥-ci təkbiri desin“

:Daha yaxşı olar ki, birinci təkbirdən sonra bu duanı oxusun

أَشهَدُ اَن لاَاِلهَ إلاَّاللهُ وَحدَهُ لاَشَرِيكَ لَهُ إلهَا واَحِدًا اَحَدًا صَمَدًا فَردًا قَيُّومًا دائِمًا اَبَدًا لَم يَتَّخِذ صَاحِبَةً وَلاَ وَلَدًا وَاَشهَدُ اَنَّ مُحَمَّدًا عَبدُهُ وَرَسُولُهُ اَرسَلهُ بِالهُدی وَدِينِ الحَقِ لِيُظهِرَهُ عَلَی الدِينِ كُلِّهِ وَلَو كَرِهَ المُشرِكُونَ بَشِيرًا وَنَذِيرًا بَينَ يَدَي السَاعِهِ

:İkinci təkbirdən sonra bu duanı oxusun

أَللّهُمَّ صَلِّ عَلَی مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَبَارِك عَلَی مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَارحَم مُحَمَّدًا وَآلَ مُحَمَّداً كَافضَلِ مَاصَلَّيتَ وَبَارَكتَ وَتَرَحَّمتَ عَلَی اِبراهِيمَ وَآلِ اِبراهِيمَ اِنَّكَ حَمِيدٌ مَجِيدٌ وَصَلِّ عَلَی جَمِيعِ الاَنبِيَاءِ وَ مُرسَلِينَ

:Üçüncü təkbirdən sonra bu duanı oxusun

أَللّهُمَّ اغفِر لِلمؤمِنِينَ وَالمُؤمِنَاتِ وَالمُسلِمِينَ وَالمُسلِمَاتِ اَلاَحيَاءِ مِنْهُم وَالاَمواَتِ تَابع بَينَنَا وَبَينَهُم بِاالخَيرَاتِ اِنَّكَ عَلَی كُلِّ شَیءٍ قَدِيرٌ

:Dördüncü təkbirdən sonra meyyit kişidirsə, bu duanı oxusun

أَللّهُمَّ اِنَّ هَذا المُسَجّی قُدامَنا عَبدُكَ وَابنُ عَبدِكَ وَابنُ اَمَتِكَ نَزَلَ بِكَ وَاَنتَ خَيرُ مَنزُولٍ بِهِ أَللّهُمَّ اِنَّكَ قَبَضتَ رُوحَهُ اِلَيكَ وَقَد اِحتاجَ اِلَی رَحمَتِكَ وَاَنتَ غَنیٌّ عَن عَذَابِهِ أَللّهُمَّ اِنّا لاَنَعلَمُ مِنهُ اِلاَّ خَيرًا وَاَنتَ اَعلَمُ بِهِ مِنّا أَللّهُمَّ اِن كَانَ مُحسِنًا فَزِد فِی اِحسَانِهِ وَ اِن كَانَ مُسِيئًا فَتَجاوَز عَنهُ وَاغفِرلَنَا وَلَهُ أَللّهُمَّ اجعَلهُ عِندَكَ فِی اَعلَی العِلِّيِّينَ وَخُلُف عَلَی اَهلِهِ فِی الغَابِرِينَ وَارحَمهُ بِرَحمَتِكَ يَااَرحَمَ الرَّاحِمِينَ

:Dördüncü təkbirdən sonra meyyit qadındırsa, bu duanı oxusun

أَللّهُمَّ اِنَّ هَـذِهِ المُسَـجَّاتَ قُـدَامَنَا اَمَتُـكَ وَابنَتُ عَبـدِكَ وَابنَتُ اَمَتِـكَ نَزَلَت بِكَ وَاَنتَ خَيرُ مَنزُولٍ بِهِ أَللّهُمَّ اِنَّا لاَنعلَمُ مِنهَا الاَّ خَيرَا وَانتَ اَعلَمُ بِهَا مِنَّا أَللّهُمَّ اِن كَانَت مُحسِـنَةً فَزِد فِى اِحسَانِهَا وَاِن كَانَت مُسِـيئَةً فَتَجَاوَز عَنهَا وَاغفِرلَهَا أَللّهُمَّ اجعَلهَا عِنـدَكَ فِى اعلىَ عِلِّيِّينَ وَاخلُف عَلَى اَهلِهَا فِى الغابِرِنَ وَارحَمهَا بِرَحمَتِكَ يَا اَرحَمَ لرَّاحِمِنَ

.Sonra beşinci təkbiri desin

?Sual ۶۹: Neçə vacib namaz var

Cavab: Hər bir müsəlmana altı namaz vacibdir: on yeddi rəkət gündəlik yövmiyyə namazı, ayət namazı, meyit namazı, böyük oğul üçün dünyasını dəyişmiş atanın qəza .namazı, icarə, nəzir, and və əhd vasitəsi ilə vacib olan namazlar

?Sual ۷۰: Gündəlik yövmiyyə namazları hansılardır

Cavab: İki rəkət sübh namazı, dörd rəkət zöhr (günorta) namazı, dörd rəkət əsr (ikindi) .namazı, üç rəkət məğrib (şam) namazı, dörd rəkət işa (xiftən) namazı

dən ۸۰ kimi olan suallar–۷۱

?Sual ۷۱: Namazı üzü qibləyə qılmaq vacibdirmi

Cavab: Namaz üzüqibləyə qılınmalıdır. Namaz qılmaq istəyən şəxs qibləni tə’yin etmək üçün çalışmalıdır. Hissi nişanələrə əsasən qiblənin istiqamətini bildirən iki aqil şəxsin dediyinə əməl etmək olar. Elmi qaydaya əsasən, qibləni göstərən insanın dediklərinə də e’tibar etmək olar. Qibləni deyilən qaydada göstərənlər olmadıqda məscid mehrablarına, müsəlman səh:۲۳

qəbirlərinə əsasən qibləni tə’yin etmək lazımdır. Heç vəchlə qiblə tə’yin olunmadıqda və namazın vaxtı dar olduqda üzü dörd tərəfə tutaraq dörd namaz qılmaq lazımdır. Əgər iki tərəfdə qiblənin ola biləcəyi ehtimal edilirsə, həmin iki tərəfə doğru namaz .qılmaq lazımdır

?Sual ۷۲: Yol gedə-gedə namaz qılmaq olarmı

Cavab: Müstəhəb namazları yol gedə-gedə, süvari halda qılmaq olar. Bu iki halda .müstəhəb namaz qılarkən üzü qibləyə dayanmaq lazım deyil

?Sual ۷۳: Hansı libasda namaz qılmaq olar

Cavab: Namaz qılınan libas pak və halal olmalıdır. Bu libas ölü və əti haram heyvanın əzalarından hazırlanmamalıdır. Namaz qılan kişidirsə, onun libası xalis ipəkdən və sapları qızıl parçadan olmamalıdır. Namaz qılan şəxs namazı bitirdikdən sonra anlasa .ki, onun paltarı murdar olub, qıldığı namaz qəbuldur

?Sual ۷۴: Qızıl zinət əşyaları ilə namaz qılmaq olarmı

Cavab: Kişi üçün qızıl zinət əşyaları haramdır və bu əşyalarla qılınmış namaz batildir. Vacib ehtiyata əsasən, kişi qızıl eynəkdən də çəkinməlidir. Amma qadınların həm .namaz vaxtı, həm də qeyri vaxtlarda qızıl əşyalardan istifadə etməsinin eybi yoxdur

?Sual ۷۵: Hansı hallarda murdar libas və ya bədənlə namaz qılmaq olar

:Cavab: Beş halda libas və bədən pak olmadıqda qılınmış namaz düzgündür

;Corab və araqçın kimi kiçik şeylər murdar olduqda .۱

;Dayənin libası saxladığı uşağın sidiyi ilə murdarlandıqda .۲

;Libas bədəndəki yaranın qanına bulaşdıqda .۳

;Bir dirhəm ölçüsündən az murdarlandıqda .۴

.İnsan murdar bədən və libasla namaz qılmağa məcbur olduqda .۵

?Sual ۷۶: Namaz harada qılınmalıdır

:Cavab: Namaz qılınan yerin beş şərti var

;Namaz qılınan yer halal olsun .۱

;Hərəkətsiz olsun .۲

;Otağın hündürlüyü ayaq üstə durmağa imkan versin .۳

Namaz qılınan yer əgər nəcasətə bulanıbsa, onun rütubəti libasa keçəcək həddə .۴ ;olmasın

Səcdə üzvləri yerə qoyularkən gərək yerin səthi bir-birindən dörd bitişik barmaqdan .۵ .artıq (istər aşağıya istər yuxarıya doğru) fərqli olmasın

?Sual ۷۷: Namazın hansı vacibatları var

Cavab: Namazın on bir vacibatı var: niyyət, qiyam, təkbirətül-ehram, səcdə, qiraət, .zikr, təşəhhüd, salam, tərtib, müvalat

?Sual ۷۸: Namazın rüknü nədir

Cavab: Rükn namazdakı o vacibatlardır ki, əgər insan bilərəkdən və bilməyərəkdən :onları artırsa və ya azaltsa, namazı batil olur. Namazın beş rüknü var

;Niyyət .۱

;Təkbirətul-ehram, yə’ni niyyətdən sonra «Əllahu Əkbər» demək .۲

Qiyam–təkbirətul-ehram deyərkən və rükudan qabaq ayaq üstə olmaq (ona rükuya .۳ ;(bitişən qiyam deyilir

;Rüku .۴

.İki səcdə .۵

?Sual ۷۹: Niyyətdən çıxmaq nə deməkdir

Cavab: İnsan namazın ortasında o qədər qəflətə vara bilər ki, əgər ondan nə etdiyini .soruşsalar, cavab tapa bilməz. Belə halda namaz batildir

?Sual ۸۰: Ayaq üstə durmaqdan ibarət olan qiyam vəziyyətinin şərti nədir

Cavab: Niyyətdən sonra «Əllahu Əkbər» deməzdən qabaq və sonra bir miqdar dayanmaq vacibdir. İnsan əmin olmalıdır ki, təkbir kəlməsini ayaq üstə demişdir. Qiyam zamanı bədən hərəkətsiz olmalı, bir tərəfə əyilməməlidir. Qiyamda ayaqlar arası məsafənin üç barmaqdan bir qarışadək olması müstəhəbdir. Qadınlar ayaqlarını .bir-birinə yapışdırsalar yaxşı olar

dən ۹۰ kimi olan suallar–۸۱

?Sual ۸۱: Rükunun şərti nədir

Cavab: Rüku vəziyyətində insan əlləri dizinə çatanadək əyilməlidir. Əllər dizə qoyulmadan da həmin qədər əyilmək kifayətdir. Rükuda istənilən bir zikr deyilə bilər. Amma bu zikr üç «Sübhanəllah» və bir «Sübhanə rəbiyəl-əzimi və bihəmdih» kəlmələrindən qısa olmamalıdır». Zikr deyilən zaman bədən rüku vəziyyətində aram .dayanmalıdır

?Sual ۸۲: Səcdənin hansı şərtləri var

Cavab: Səcdə alının, iki əlin içinin, iki dizin, iki ayağın baş barmaqlarının yerə qoyulmasından və ən azı üç

sübhanəllah» zikri həddində səcdədə qalmaqdan ibarətdir. İki səcdə arasında aram» .oturmaq lazımdır. Səcdə zamanı yerə toxunası yeddi üzv bilərəkdən qaldırılmamalıdır

Sual ۸۳: Namazın bütün rəkətlərində həmd («Fatihə») və surə (məs. «İxlas») oxumaq ?vacibdirmi

Cavab: Vacib yövmiyyə namazlarının birinci və ikinci rəkətlərində həmd və surə oxumaq vacibdir. Vacib yövmiyyə namazlarının üçüncü və dördüncü rəkətlərində isə təkcə həmd oxunsa kifayətdir. Həmd əvəzinə «təsbihati-ərbəə» demək olar. Müstəhəb .namazlarda isə təkcə həmd oxumaq vacibdir

?Sual ۸۴: Namaz ucadan, yoxsa astadan qılınmalıdır

Cavab: Kişilər sübh, məğrib və işa namazlarını ucadan qılmalıdırlar. Zöhr və əsr namazlarında isə həm kişilərin, həm də qadınların həmd və surəni astadan oxuması lazımdır. Ucadan deyiləsi həmd və surəni astadan, astadan deyilməsi həmd və surəni .ucadan demək bilərəkdən olduqda namaz batildir

?Sual ۸۵: Əvvəl surəni, sonra isə həmdi oxumaq olarmı

.Cavab: Namazdakı ardıcıllığı bilərəkdən pozmaq namazı batil edir

?Sual ۸۶: Peyğəmbərin adı çəkildikdə salavat çəkmək vacibdirmi

Cavab: Peyğəmbərin adı, ləqəbi və ya künyəsi deyildikdə (hətta namazda da olmuş .olsa) salavat çəkmək müstəhəbdir

?Sual ۸۷: Nələrə səcdə etmək olmaz

Cavab: Yeddi şeyə səcdə etmək olmaz: ۱. Yeməli şeylərə; ۲. Geyməli şeylərə; ۳. Mə’dəndən çıxan şeylərə (məsələn, qızıl, gümüş); ۴. Təzə üzüm yarpağına; ۵. Torpaqdan cücərən yeməli dərman bitkilərinə (məsələn, bənövşə, maldili); ۶. Bə’zi .məntəqələrdə yeməli sayılan bitkilərə; ۷. Kal meyvəyə

?Sual ۸۸: Namazı nələr batil edir

:Cavab: On iki şey namazı batil edir

Namazın ortasında şərtlərdən birinin ödənmədiyi mə’lum olsa (məsələn, namazın .۱ ;(yeri qəsb olunmuş yerdir

Namazın gedişində bilərəkdən və ya bilməyərəkdən dəstəmazı və ya qüslü batil .۲ ;(edən hal baş versə (məsələn, sidik xaric olsa

;Əllər üst-üstə qoyulsa .۳

;Həmd oxunduqdan sonra «amin» deyilsə .۴

Bilərəkdən və ya diqqətsizlikdən qibləyə arxa çevirsə, qiblədən çıxmış sayılacaq .۵ ;qədər sağa və sola meyl edilsə

;Bilərəkdən namaza aid olmayan mə’nalı və ya mə’nasız söz deyilsə .۶

;Bilərəkdən bərkdən gülmək .۷

;Dünya işlərinə görə bilərəkdən bərkdən ağlamaq .۸

;(Namazın formasını pozan işlər (əl çalmaq .۹

Yemək-içmək (məs. ağızdakı tikə ya qalıqları udub qurtarmamış namaza .۱۰ ;(başlamaq

İki rəkətli və üç rəkətli namazlarda, eləcə də, dörd rəkətli namazların ilk iki .۱۱ ;rəkətində rəkətlərin sayında edilən şəkk

.Bilərəkdən və ya səhvən namazın rüknlərinin artırılıb-azaldılması .۱۲

?Sual ۸۹: Namaz gedişində salam almaq olarmı

.Cavab: Namaz gedişində düzgün və ya ciddi verilmiş salamı almaq lazımdır

?Sual ۹۰: Hansı hallarda namazı dayandırmaq olar

:Cavab: Dörd halda namazı dayandırmaq olar

;İnsan öz canı və malını qorumaq üçün namazı dayandıra bilər .۱

Namaz zamanı tələbkar verdiyi borcu tələb edərsə və namazı dayandırmadan borcu .۲ ;qaytarmaq mümkün olmazsa

;Namaz gedişində insan başa düşsə ki, məscid murdarlanmışdır .۳

.Rükuya getməmişdən azan və iqamənin yaddan çıxdığı yada düşdükdə .۴

dən ۱۰۰ kimi olan suallar–۹۱

?Sual ۹۱: Namazda neçə növ şəkk var

Cavab: Namazda üç növ şəkk ola bilər: Namazı batil edən şəklər, e'tina edilməyəsi .şəklər və e'tina ediləsi düzgün şəklər

?Sual ۹۲: Hansı şəklər namazı batil edir

:Cavab: Səkkiz şəkk namazı batil edir

;İki rəkətli namazlarda rəkətlərin sayındakı şəkk .۱

;Üç rəkətli namazlarda rəkətlərin sayında şəkk .۲

;Dörd rəkətli namazda şəkk edilərsə ki, bir rəkət qılınıb, yoxsa çox .۳

Dörd rəkətli namazda ikinci rəkətin ikinci səcdəsi tamam olmamış şəkk edilə ki, iki .۴ ;rəkət qılınıb, yoxsa çox

;Şəkk edilə ki, iki rəkət qılınıb, yoxsa beş və ya iki rəkət qılınıb, yoxsa daha çox .۵

;Şəkk edilə ki, üç rəkət qılınıb, yoxsa altı və ya üç rəkət qılınıb, yoxsa altıdan çox .۶

;Şəkk edilə ki, görən neçə rəkət qılınıb .۷

İkinci rəkət tamam olmuş olsa da, şəkk edilə ki, dörd rəkət qılınıb, yoxsa altı və ya .۸ dörd rəkət qılınıb, yoxsa altıdan çox? Amma ikinci rəkət tamam olduqdan sonra şəkk edilsə ki, dörd rəkət qılınıb, yoxsa altı və ya çox, müstəhəb ehtiyata əsasən dörd rəkət qılındığını qəbul edib, namazı başa çatdırdıqdan sonra iki sədəyi-səhv yerinə yetirilir, .həm də namaz yenidən qılınır

?Sual ۹۳: Namazda e'tina ediləsi şəkdən sonra vəzifə nədir

.Cavab: Bütün düzgün şəklər, yə'ni e'tina ediləsi şəklər dörd rəkətlik namazlara aiddir

İkinci səcdədən qalxdıqdan sonra şəkk edilsə ki, iki rəkət qılınıb, yoxsa üç rəkət, üç rəkət qılındığı qəbul edilməlidir və namaz tamamlandıqdan sonra bir rəkət ehtiyat namazı qılınmalıdır. İkinci səcdədən sonra şəkk edilsə ki, iki rəkət qılınıb, yoxsa dörd rəkət, dörd rəkət qılındığı qəbul edilməlidir və namaz tamamlandıqdan sonra iki rəkət ehtiyat namazı qılınmalıdır. İkinci səcdədən sonra iki, üç və ya dörd rəkət namaz qılındığına şəkk edilərsə, dörd rəkət qəbul edilməlidir və namaz tamamlandıqdan sonra iki rəkət ayaq üstə, iki rəkət oturaq ehtiyat namazı qılınmalıdır. Əgər ikinci səcdədən sonra şəkk

edilsə ki, dörd rəkət qılınıb, yoxsa beş rəkət, dörd rəkət qılındığı qəbul edilməlidir və namaz tamamlandıqdan sonra iki səcdəyi-səhv yerinə yetirilməlidir. Əgər şəkk edilsə ki, üç rəkət qılınıb, yoxsa dörd rəkət, namazın istənilən bir yerində olur-olsun, dörd rəkət qılındığını qəbul edərək namazı tamamlamaq, sonra isə bir rəkət ayaq üstə, iki rəkət oturaq ehtiyat namazı qılmaq lazımdır. Ayaq üstə şəkk edilsə ki, üç rəkət qılınıb, yoxsa beş, əvvəlcə oturmaq, təşəhhüd və salamı demək, namazı tamamladıqdan sonra bir rəkət ayaq üstü, iki rəkət oturaq ehtiyat namazı qılmaq lazımdır. Ayaq üstə şəkk edilsə ki, üç rəkət qılınıb, yoxsa beş, oturmaq, təşəhhüd və salamı deyib, namazı tamamlamaq lazımdır. Sonra iki rəkət ayaq üstə ehtiyat namazı qılınır. Ayaq üstə üç, ya dörd, ya beş rəkət qılındığına şəkk edilərsə, oturub təşəhhüd və salamı deməklə namazı tamamlamaq, sonra isə iki rəkət ayaq üstü, iki rəkət oturaq ehtiyat namazı qılmaq lazımdır. Əgər ayaq üstə beş və ya altı rəkət namaz qılındığına şəkk edilərsə, oturub təşəhhüdlə salamı demək və namazı tamamladıqdan sonra səcdəyi-səhv .yerinə yetirmək lazımdır

?Sual ۹۴: Ehtiyat namazı necə qılınır

Cavab: Ehtiyat namazı qılmalı olan şəxs namazı bitirən kimi dərhal ehtiyat namazını niyyət etməli və təkbir deməlidir. Sonra həmd oxuyub rükuya getməli və rükudan sonra iki səcdə yerinə yetirməlidir. Sonra isə təşəhhüd və salam deyilir. Ehtiyat namazı astadan

.qılınır. Hətta vacib ehtiyata əsasən «Bismillah» da astadan deyilir

?Sual ۹۵: Səcdəyi-səhv necə yerinə yetrilir

Cavab: Namaz başa çatan kimi səcdəyi-səhv niyyət edilir, səcdəyə gedilərək deyilir: «Bismillahi və billahi, əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd» sonra oturaq vəziyyətə qayıdılır və yenidən səcdəyə gedilir, eyni zikrlər təkrarlanır. İkinci səcdədən .sonra oturaq vəziyyətdə təşəhhüd və salam deyilir

?Sual ۹۶: İslam şəriətində kimlər müsafir hesab olunur

Cavab: Səfəri qırx beş kilometr və ondan çox məsafədən ibarət olan şəxs müsafir hesab olunur. Bir şərtlə ki, onun getdiyi yol iyirmi iki tam, onda beş kilometrdən az .olmasın

?Sual ۹۷: Səfərdə qılınan namazlar adi vaxtda qılınan namazdan fərqlənirmi

Cavab: Müsafir zöhr, əsr və işa namazlarını dörd rəkət yox, iki rəkət qılır. Amma :namazın yarı qılınması (qəsr) üçün şərtlər mövcuddur

;Səfər qırx beş kilometrdən (səkkiz fərsəx) az olmamalıdır .۱

;Səfərə çıxarkən məqsəd qırx beş kilometrlik yolu getmək olmalıdır .۲

;Yolun ortasında müsafir fikrini dəyişməməlidir .۳

Qırx beş kilometr tamam olmamış yolu vətənindən keçməməlidir və ya bir yerdə on .۴ ;gündən artıq qalmamalıdır

;Səfərin məqsədi haram iş olmamalıdır .۵

;Köçəri həyat tərzi keçirən insanlar namazlarını tam qılmalıdır .۶

;Səfərə çıxmaq peşə olmamalıdır .۷

Vətənindən və ya on gün qalacağını qəsd etdiyi yerdən o qədər uzaqlaşmalıdır ki, .۸ .şəhərin divarı görünməsin və azan səsi eşidilməsin

Sual ۹۸: Qırx beş kilometr məsafəni qət edən ovçu müsafir sayılırmı? Onun da ?namazları yarıdırmı

Cavab: Əyləncə üçün ova gedən insan namazını bütöv qılmalıdır. Dolanışıq xətrinə bu işlə məşğul olan insanın isə namazı yarıdır. Var-dövlət qazanmaq məqsədi ilə ova .gedənlər isə vacib ehtiyata əsasən namazlarını həm yarı, həm də bütöv qılmalıdırlar

?Sual ۹۹: Qəza namazları üçün vaxt tə'yin olunmuşdurmu

Cavab: Vacib namazlarını vaxtında qılmayıb qəzaya verən şəxs bu namazları qılmalıdır. Vacib qəza namazlarını dərhal qılmaq tələb olunmur. Amma bu işdə laqeydlik, süstlük .göstərmək olmaz. Dünyasını dəyişmiş atanın qəza namazlarını böyük oğlan qılmalıdır

Sual ۱۰۰: Vacib namazları xüsusi ilə yövmiyyə namazlarını camaatla qılmağın savabı ?varmı

Cavab: Vacib namazları, xüsusi ilə yövmiyyə namazlarını camaatla qılmaq müstəhəbdir. Sübh, məğrib və işa namazlarını camaatla qılmaq məscidin qonşuluğunda yaşayanlara və məscidin azanının səsin eşidənlərə xüsusi tapşırılmışdır. Rəvayətdə bildirilmişdir ki, pişnamaza bir nəfər iqtida edərsə, onların namazlarının hər rəkətinə yüz əlli namazın

savabı verilər. Əgər iki nəfər iqtida edərsə, onların namazlarının hər rəkətinə altı yüz namazın savabı verilər. İqtida edənlərin sayı artdıqca namazın da savabı artır. İqtida edənlərin sayı on nəfərə çatdıqda və ya on nəfəri keçdikdə göylər kağız, dəryalar mürəkkəb, ağaclar qələm, bütün cin, insan və mələklər yazan olarlarsa, həmin .namazın bir rəkətinin savabını yazıb qurtara bilməzlər

dən ۱۱۰ kimi olan suallar–۱۰۱

Sual ۱۰۱: Cəmiyyət namazı gec bərpa olduqda namazı fərdi şəkildə, vaxtında qılmaq ?yaxşı deyilmi

Cavab: Səbir edib namazı camaatla qılmaq müstəhəbdir. Son vaxtda qılınan cəmiyyət .namazı əvvəl vaxtda qılınan fərdi namazdan üstündür

?Sual ۱۰۲: Hansı hallarda camaat namazında iştirak etmək vacibdir

Cavab: Fərdi halda namaz qıldığı vaxt vəsvəsələrə düçar olan insan camaatla namaz .qıldıqda vəsvəsələrdən yaxa qurtara bilirsə, namazını camaatla qılmalıdır

Əgər ata-ana övladına əmr edərsə ki, namazını camaatla qılsın, ata-anaya itaət vacib .olduğundan, vacib ehtiyata əsasən, övlad namazını camaatla qılmalıdır

Namazın həmd-surəsini və digər mətnlərini yaxşı bilməyən kəs vaxtı olduqda namazı yaxşı öyrənməli, vaxtı dar olduqda, vacib ehtiyata əsasən namazını camaatla .qılmalıdır

?Sual ۱۰۳: Cəmiyyət namazında kim imam (pişnamaz) dayana bilər

Cavab: Cəmiyyət namazında imam dayanan şəxs baliğ (həddi-büluğ), aqil (ağıllı), on iki imamçı şiə, adil (ədalətli), halalzadə (qanuni nikahdan doğulmuş), namazı düzgün qıla bilən, iqtida edənlər kişidirsə, kişi olmalıdır. Vacib ehtiyata əsasən, bütün hallarda .pişnamaz kişi olmalıdır

.Pişnamaz adını bilmək mə’mum (iqtida edən) üçün vacib deyil

?Sual ۱۰۴: İqtida edən şəxsin (mə’mum) hansı vəzifələri var

Cavab: Mə’mum imamdan qabaqda dayanmamalı, vacib ehtiyata əsasən, bir qədər arxada dayanmalıdır. Mə’mum həmd və surədən başqa namazın bütün sözlərini özü deməlidir. Amma cəmiyyət namazına üçüncü və ya dördüncü rəkətdə qoşulan mə’mum həmd və surəni də deyəsidir. Sübh, məğrib və işa namazlarında imamın həmd surə səsini eşitmədikdə mə’mumun astadan həmd-surə oxuması müstəhəbdir. Zöhr və əsr namazlarının birinci və ikinci rəkətində həmd surə əvəzinə zikr demək müstəhəbdir. Mə’mum təkbirətul-ehramı imamdan qabaq deməməlidir. Hətta vacib .ehtiyata əsasən, imam təkbiri qurtarmamış mə’mum təkbirə başlamamalıdır

Sual ۱۰۵: Bə’ziləri camaat namazında namazı imamdan qabaq qurtarırlar. Bu ?düzgündürmü

Cavab: Namazın sonunda salam hissəsini imamdan qabaq deyib namazı qurtarmaq .olar

?Sual ۱۰۶: Ayət namazı nədir

:Cavab: Ayət namazı vacib namazlardandır. Bu namaz dörd halda vacib olur

Günəş tutulduqda; ٢. Ay tutulduqda (azca da tutulmuş olsa və kimsə qorxmasa da); .١ ٣. Zəlzələ baş verdikdə (əgər kimsə qorxmamış olsa da); ۴. Şimşək çaxdıqda, qara və .(qırmızı yel əsdikdə (adamların çoxu qorxmuş olsa

?Sual ١٠٧: Ayət namazı necə qılınır

:Cavab: Ayət namazı iki rəkətdir: Bu namaz iki şəkildə qılına bilər

Birinci şəkil: Niyyət edilir, təkbir deyilir, bir həmd və bir surə tam oxunur, rükuya gedilir, rükudan qayıdılır, yenidən bir həmd və bir surə oxunur, bir də rükuya gedilir. Beləcə, həmd-surə və rüku beş dəfə təkrarlanır. Beşinci rükudan, qalxdıqdan sonra iki səcdə edilir. Sonra namazın ikinci rəkəti eyni qaydada qılınır. Namaz təşəhhüd və salamla .başa çatır

İkinci şəkil: Niyyət edilir, təkbir deyilir, həmd oxunur, surənin ayələrindən biri deyilir, rükuya gedilir, rükudan qalxdıqdan sonra surənin ikinci ayəsi deyilir və yenə rükuya gedilir. Bu qayda ilə surənin beş ayəsinin hər biri deyildikdən sonra bir rüku edilir. Beşinci rükudan qalxdıqdan sonra iki səcdə yerinə yetirilir və ayağa qalxaraq namazın .ikinci rəkəti eyni qayda ilə qılınır. Namaz təşəhhüd və salamla başa çatır

?Sual ١٠٨: Oruc nədir

Cavab: Oruc İslamda vacib əməllərdən biridir. İnsan Allahın əmrini yerinə yetirmək məqsədi ilə sübh

.azanından məğrib azanınadək orucu batil edən işlərdən çəkinir

?Sual ۱۰۹: Orucu nələr batil edir

Cavab: Doqquz şey orucu batil edir: ۱. Yemək və içmək; ۲. Cima (cinsi yaxınlıq); ۳. İstimna (özündən məni xaric etmə); ۴. Allahın, peyğəmbərin və peyğəmbər canişinlərinin adından yalan danışmaq; ۵. Hülqümə qatı toz və tüstünün yetişməsi; ۶. Başı bütövlüklə suya batırmaq; ۷. Sübh azanınadək boyundakı cənabət, heyz, nifas .qüslünün verilməməsi; ۸. Axıcı şeylərlə imalə etmək; ۹. Qusmaq

?Sual ۱۱۰: Oruc tutmuş qadın yeməyin dadına baxa bilərmi

Cavab: Əgər yemək boğaza çatmasa, onun dadına baxmaq olar. Yeməyin dadına baxarkən təsadüfən boğaza çatarsa, oruc batil olmaz. Amma yeməyin dadına baxmaq istəyən kəs əvvəlcədən bilsə ki, yemək boğazına çatacaq və bu iş baş versə, orucu .batildir. Belə orucun qəzası tutulmalı və kəffarəsi də verilməlidir

dən ۱۲۰ kimi olan suallar–۱۱۱

Sual ۱۱۱: Oruc tutmuş şəxs yuxuda möhtəlim olarsa (ondan məni xaric olarsa), orucu ?batil olarmı

.Cavab: İnsanın özündən asılı olmadan məni xaric olarsa, onun orucu batil deyil

Sual ۱۱۲: Əgər bir şəxs peyğəmbərin dilindin bir söz deyərsə və sonradan anlayarsa ki, ?bu söz yalan imiş, orucu batildirmi

.Cavab: Doğru olmadığı sonradan bilinən sözlərə görə oruc batil olmaz

Sual ۱۱۳: Əgər bir şəxs bilmədən suya yıxılaraq başı tam suya batarsa, onun orucu ?batildirmi

Cavab: Özündən ixtiyarsız suya yıxılan və başı bütünlüklə suya batan insanın orucu .batil deyil

?Sual ۱۱۴: Boynunda cənabət qüslü olan kəs ramazan ayında oruc tuta bilərmi

Cavab: Ramazan ayında cünub olduğu halda oruc tutmaq istəyən kəs bilərəkdən qüsl verməyib vaxtın darlığını gözləsə və təyəmmüm edib oruc tutsa, onun orucu qəbuldur .amma günah işlətmişdir

Ramazan ayında gecə cünub olan kəs bilsə ki, yatsa sübhədək oyanıb qüsl verə bilməyəcək, yatıb yuxuya qalsa orucu batildir. O adam həm qəza orucu tutmalı, həm .də kəffarə verməlidir

.Oruc tutan şəxs gündüz möhtəlim olsa, dərhal qüsl verməyi vacib deyil

?Sual ۱۱۵: Oruc halda imalə etmək olarmı

Cavab: Oruc vaxtı imalə etmək orucu batil edir. Amma müalicə üçün şamlardan .istifadə etməyin eybi yoxdur. Amma qidalandırıcı şamlardan istifadə etmək olmaz

?Sual ۱۱۶: Əgər insan özündən ixtiyarsız qusarsa, orucu batil olarmı

.Cavab: İxtiyarsız halda qusmaq orucu batil etmir

?Sual ۱۱۷: Orucun neçə qisim kəffarəsi olur

Cavab: Orucun iki qisim kəffarəsi olur: Cəm kəffarə və tək kəffarə. Cəm kəffarə bir bəndə (qul) azad etməkdən, iki ay oruc tutmaqdan və altmış fəqiri doydurmaqdan .ibarətdir

?Sual ۱۱۸: Ramazan ayında hansı hallarda təkcə qəza orucu vacib olur

:Cavab: On halda yalnız qəza orucu vacib olur

١. Oruc tutmuş şəxs bilərəkdən qussa;

٢. Ramazan ayında gecə cünub olub, sübh azanınadək oyanmasa;

٣. Oruc tutmağı niyyət etməsə;

۴. Cənabət qüslü verməyi yaddan çıxarsa;

۵. Sübh azanının olub-olmadığını araşdırmadan orucu pozan bir iş görsə və sonra məʼlum olsa ki, azan olubmuş;

۶. Bir şəxsin «sübh olmayıb» deməsi ilə orucu pozan iş görülsə və sonradan sübh olduğu məʼlum olsa;

٧. Bir şəxs sübh azanının verildiyini dediyi halda, insan onun sözünü zarafat sayıb, orucu pozan iş gördükdən sonra sübh olduğu məʼlum olsa;

٨. Kor və onun kimilər başqa bir kimsənin sözü ilə iftar etsələr və sonra bilinsə ki, məğrib olmayıb;

٩. Saf havada qaranlığa görə məğrib olduğunu təʼyin edərək, iftar edilməsi və sonradan məğrib olmadığının aşkar olması; (Amma buludlu havada belə bir gümanla iftar edən kəs üçün qəza yoxdur).

١٠. Sərinləşmək məqsədi ilə ağıza su alıb, bilmədən suyu udmaq (amma oruc olduğunu unudub, ağzını yaxalayarkən suyu udan kəs üçün qəza orucu yoxdur).

Sual ١١٩: Əgər bir şəxs xəstəlik səbəbindən Ramazan ayında oruc tuta bilməsə və növbəti ilin Ramazan ayınadək sağalmasa, qəza orucu tutmalıdırmı?

Cavab: Növbəti ramazan ayınadək xəstəlik sağalmasa, tutmadığı orucların qəzasını tutmaq vacib deyil, amma

.hər gün üçün fəqirə on sir (bir sir yetmiş beş qramdır) təam verməlidir

?Sual ۱۲۰: Qəza oruclarını bir neçə il tə'xirə salan şəxs nə etməlidir

.Cavab: Orucların qəzası tutulmalı və hər gün üçün fəqirə on sir təam verilməlidir

dən ۱۳۰ kimi olan suallar–۱۲۱

?Sual ۱۲۱: Atanın qəza namazı və orucları ilə bağlı övlad nə edə bilər

.Cavab: Dünyasını dəyişmiş atanın qəza namazı və orucları böyük oğulun öhdəsinədir

?Sual ۱۲۲: Səfərə çıxan şəxs oruc tuta bilərmi

Cavab: Günortadan sonra səfərə çıxan şəxs tutduğu orucu başa vurmalıdır. Günortadan qabaq səfərə çıxan şəxs isə tərəxxüs həddini keçdikdən sonra, yə'ni şəhərin divarları görünmədikdə və azan səsi eşidilmədikdə orucunu açmalıdır. Səfərdən qayıdan şəxs günortadan qabaq vətəninə çatarsa, həmin vaxtadək orucu batil edən işlər görmədiyi halda, oruc tuta bilər. Səfərdən qayıdan şəxs günortadan .sonra vətəninə çatarsa, həmin gün oruc tuta bilməz

?Sual ۱۲۳: Oruc tutmaq kimlərə vacib deyil

:Cavab: Dörd halda oruc tutmaq vacib olmur

;Qocalıq və məşəqqət səbəbindən .۱

;Susuzluqdan əziyyət çəkən xəstələr .۲

Hamiləliyin son dövründə olan qadının tutacağı oruc özünə və hamiləliyinə zərər .۳ ;olduqda

;Uşaq əmdirən və südü az olan qadınlar .۴

?Sual ۱۲۴: Ayın əvvəli (fitr bayramı) hansı yolla tə'yin olunur

Cavab: Ayın əvvəli beş yolla tə’yin olunur: ۱. İnsan özü ayı görsə; ۲. Bir qrup şəxsin ayı görmək xəbəri yəqinlik yaradarsa (yəqinlik yaradan istənilən bir şey); ۳. İki adil kişi ayı gördüklərini desələr; ۴. Aydan otuz gün keçmiş olsa; ۵. Şər’i hakim ayın başlaması .barədə hökm versə

?Sual ۱۲۵: Şər’i hakimin hökmü yalnız onun müqəllidlərinəmi aiddir

Cavab: Əgər şər’i hakim hökm etsə ki, ayın əvvəlidir, ona təqlid etməyənlər də uyğun .hökmə əməl etməlidir

?Sual ۱۲۶: Oruc tutmaq nə vaxtlar vacibdir

.Cavab: Ramazan ayında, eləcə də nəzir, əhd və and səbəbi ilə oruc tutmaq vacibdir

?Sual ۱۲۷: Hansı günlər oruc tutmaq haramdır

Cavab: Fitr və qurban bayramları günləri və Şəbanın sonuncu günü ilə Ramazanın .birinci gününün başlaması mə’lum olmadıqda

?(Sual ۱۲۸: Hansı günlər oruc tutmaq məkruhdur (bəyənilmir

.Cavab: Aşura günü, ərəfə və qurban olduğu bilinməyən gün oruc tutmaq məkruhdur

?(Sual ۱۲۹: Hansı günlər oruc tutmaq müstəhəbdir (bəyənilmişdir

:Cavab: Aşağıda qeyd olunan günlərdə oruc tutmaq daha çox tapşırılmışdır

Hər qəməri ayın birinci, sonuncu cümə axşamı günləri və ayın onuncu günündən .۱ ;sonra gələn ilk çərşənbə günü

;Hər ayın on üçü, on dördü və on beşi .۲

;Rəcəb və Şəban aylarının bütün günləri .۳

;Novruz bayramı günü .۴

;Zilqə'də ayının iyirmi beşinci və iyirmi doqquzuncu günü .۵

Zilhiccənin birinci və doqquzuncu günləri .۶

;(Qədir günü (zilhiccənin on səkkizinci günü .۷

;Məhərrəmin birinci və üçüncü günü .۸

;(Həzrət peyğəmbərin (s) mövludu günü (rəbiül-əvvəlin on yeddinci günü .۹

(Məb'əs günü (rəcəbin iyirmi yeddinci günü .۱۰

?Sual ۱۳۰: Ardıcıl şəkildə yoxsullara yardım əli uzadan şəxs də xüms verməlidirmi

.Cavab: Xümsü verilməmiş malı istifadə etmək olmaz

dən ۱۴۰ kimi olan suallar-۱۳۱

?Sual ۱۳۱: Hansı şeylərə xüms verilməlidir

Cavab: Yeddi şeyin xümsünü vermək vacibdir: illik mənfəət; mə'dən; xəzinə; harama qarışmış halal mal; suya batmaqla əldə edilmiş cavahir; döyüş qəniməti; zimmi kafirin .müsəlmandan aldığı torpaq

?Sual ۱۳۲: İllik mənfəət nə deməkdir

Cavab: İllik mənfəət dedikdə insanın özünün və ailəsinin illik xərclərini ödədikdən sonra artıq qalan mənfəət nəzərdə tutulur. Bu mənfəətin xümsü, yə'ni beşdə biri .verilməlidir

?Sual ۱۳۳: Nələrə xüms düşmür

Cavab: Hədiyyəyə, qadının aldığı mehriyyəyə, xüms verən kəsdən qalmış irsə, kafirdən və ya xümsə əqidəsi olmayan adamdan ələ gələn mala, satış üçün alınmış malın il

ərzindəki qiymət artımına, il boyu alınmış

.ehtiyac duyulan şeylərə, fəqirin xüms, zəkat, sədəqə kimi aldığı məbləğə

?Sual ۱۳۴: Həddi-buluğ olduğu gündən xüms verməmiş müsəlmanın vəzifəsi nədir

Cavab: İllik gəlirdən alınmış, ehtiyac duyulmayan və alındığı gündən bir il ötən şeylərin xümsü verilməlidir. İnsan bilsə ki, ev-eşik və sair ehtiyac duyulan şeyləri şə’ninə uyğun olaraq, qazancı olan ildə almışdır, həmin şeylərin xümsünü vermək lazım deyil. Amma il arası və ya il tamam olduqdan sonra alındığı bilinməyən şeylərin xümsü vacib .ehtiyata əsasən verilməlidir

?Sual ۱۳۵: Harama qarışmış halal mal nə deməkdir

Cavab: İnsan öz malının hansı hissəsinin halal, hansı hissəsinin haram olduğunu .müəyyənləşdirə bilmirsə, o, harama qarışmış halal mal sayılır

?Sual ۱۳۶: İnsan öz malının müəyyən hissəsinin haram olduğunu bilirsə, nə etməlidir

Cavab: Əgər həmin malın əsil sahibini tanımırsa, onun tərəfindən sədəqə kimi paylamalıdır. Bu iş vacib ehtiyata əsasən, şər’i hakimdən icazə almaq lazımdır. Əgər .haram malın əsil sahibi tanınırsa, malı sahibinə qaytarmaq lazımdır

?Sual ۱۳۷: Xüms kimə verilməlidir

Cavab: Xüms iki hissəyə bölünür: İmamın malı və seyidlərin malı. Amma hər iki .istiqamətdə xümsü sərf etmək üçün cəmeüş-şərait müctəhidin icazəsinə ehtiyac var

Sual ۱۳۸: İllik mənfəətdən il arasında minik avtomobili alınarsa, onun xümsünü vermək ?lazımdırmı

Cavab: Əgər avtomobil qazanc məqsədi ilə alınmamışdırsa, xümsünü vermək vacib .deyil

?Sual ۱۳۹: Xüms günü (ili) günəş, yoxsa ay təqvimi ilə müəyyən edilməlidir

.Cavab: Xüms gününü günəş təqviminə əsasən tə'yin edin

?Sual ۱۴۰: Hansı şeylər üçün zəkat ödənməlidir

Cavab: Doqquz şeyin zəkatı vacibdir: Buğda, arpa, xurma, kişmiş, qızıl, gümüş, dəvə, .inək, qoyun

?Sual ۱۴۱: Əgər bir şəxsin bir inəyi və ya iki qoyunu varsa, zəkat ödəməlidirmi

Cavab: Zəkatın vacib olması üçün sadalanan şeylər nisab həddində olmalıdır. Yə'ni zəkatı vacib olan doqquz şeyin hər biri nisab həddinə çatdıqda, onun zəkatını vermək vacib olur. Bə'zi nisab hədləri ilə tanış olaq: beş dəvəsi olan bir qoyun, otuz inəyi olan bir dana, qırx qoyunu olan bir qoyun zəkat verməlidir. Demək, nisab həddinə .çatmamış malların zəkatını vermək lazım deyil

dən ۱۵۰ kimi olan suallar–۱۴۱

?Sual ۱۴۲: Zəkat kimə verilməlidir

Cavab: Zəkat fəqirə, miskinə, imam və imamın naibi tərəfindən zəkat toplamaq əmr olunmuş kəsə, zəkat vasitəsi ilə İslama meyl edəcək kafirə, qulların azad olunmasına, borcunu ödəyə bilməyənin borcunun ödənməsinə, Allah yolunda müəyyən işlərə, yolda qalmış müsafirə xərclənə bilər. Zəkatı müctəhidin icazəsi olmadan da sərf etmək .olar

?Sual ۱۴۳: Bir şəxs neçə dəfə Həcc ziyarətində olmalıdır

Cavab: Şərtlər ödəndikdə hər bir müsəlmana ömrü boyu cəmi bir dəfə həcc .ziyarətində olmaq vacibdir

?Sual ۱۴۴: Həcc ziyarəti kimlərə vacibdir

:Cavab: Həcc ziyarətinin vacib olması üçün aşağıdakı şərtlər ödənməlidir

;Yol azuqəsi və səfərdə ehtiyac duyulan şeylər, eləcə də nəqliyyat mövcud olmalıdır .۱

.İnsan sağlam olmalı və həcc ziyarətini yerinə yetirməyə qüdrəti çatmalıdır .۲

;Yolda maneə olmamalıdır .۳

;Həcc əməllərini yerinə yetirmək üçün kifayət qədər vaxt olmalıdır .۴

;Həccə gedən şəxs ehtiyacını ödəməli olduğu kəslərin xərclərini ödəyə bilməlidir .۵

Həcc ziyarətindən qayıtdıqdan sonra dolanışıq xərclərinin əldə olunmasında çətinlik .۶ .çəkməməlidir

?Sual ۱۴۵: Hansı şeylərin alqı-satqısı batildir

:Cavab: Alqı-satqısı batil olan şeylər beş qisimdir

;Spirtli içkilər kimi murdar şeylər .۱

;Qəsb olunmuş şeylər .۲

;Mal sayılmayan həşərat kimi şeylər .۳

;Qazancı haram olan qumar və musiqi aləti kimi şeylər .۴

;Sələm qatqılı müamilələr .۵

?Sual ۱۴۶: Az yaşlı uşaq alış-veriş edə bilərmi

Cavab: Alıcı və satıcı üçün müəyyən şərtlər tə’yin olunmuşdur. Alıcı və satıcı həddi-büluğ olmalı, ağıllı olmalı, ciddi alış-veriş məqsədində olmalı, kimsə tərəfindən məcbur

edilməməli, satdığı şeyin və ya

səh:۴۵

ödədiyi məbləğin sahibi olmalıdır. Körpə uşaq yalnız uşaq üçün adi sayılan bə’zi şeyləri .sata bilər. Ciddi alış-verişdə isə uşaq alıcı ilə satıcı arasında vasitə rolunu oynaya bilər

?Sual ۱۴۷: Hansı hallarda müamiləni pozmaq, malı və ya pulu geri qaytarmaq olar

:Cavab: On bir halda müamiləni pozmaq olar

;Alış-veriş səhnəsini tərk etməmiş .۱

;Aldadılmış olduqda .۲

;Alqı-satqı zamanı müamilənin pozulması barədə şərt kəsildikdə .۳

;Satıcı malını, alıcı pulunu olduğundan üstün göstərdikdə .۴

;Alıcı və ya satıcı qeyd olunmuş şərti pozduqda .۵

;Malda və ya pulda eyib olduqda .۶

;Satılmış malın bir hissəsinin satıcıya aid olmadığı bilindikdə .۷

Satıcı malın görünməyən bir xüsusiyyətini dedikdə və sonradan bu xüsusiyyətin .۸ ;olmadığı aşkarlandıqda

Müştəri aldığı malın pulunu üç gün ərzində ödəmədikdə və satıcı da həmin malı təhvil .۹ ;vermədikdə

;Heyvan alan şəxs üç gün müddətində onu qaytarmaq istədikdə .۱۰

.Satıcı satılmış malı təhvil verə bilmədikdə .۱۱

?Sual ۱۴۸: Hansı hallarda malı geri qaytarmaq olmaz

Cavab: Əgər alqı-satqı zamanı malın eybi mə’lum olarsa və alıcı bununla razılaşarsa, .sonradan malı geri qaytara bilməz

?Sual ۱۴۹: Nələrə baxmaq haramdır

.Cavab: Haram baxış yeddi qisimdir

İstər ləzzət məqsədi ilə, istərsə də belə bir məqsədsiz, kişinin naməhrəm qadının .۱ ;bədəninə baxması

;Ləzzət məqsədi ilə kişinin naməhrəm qadının üzünə və əllərinə baxması .۲

;Üz və əllər istisna olmaqla qadının naməhrəm kişinin bədəninə baxması .۳

;Ləzzət məqsədi ilə həddi-büluğ olmamış qızın üzünə, bədəninə və saçına baxmaq .۴

;Ləzzət məqsədi ilə kişinin kişi bədəninə baxması .۵

.Ləzzət məqsədi ilə qadının qadın bədəninə baxması .۷

Sual ۱۵۰: Halal-haramlığı mə’lum olmayan bank, müəssisə və bu kimi başqa yerlərdə ?namaz qılmaq olarmı

.Cavab: Əgər həmin məkanın qəsbi olması mə’lum deyilsə, namaz qılmaq olar

dən ۱۶۰ kimi olan suallar–۱۵۱

?Sual ۱۵۱: Tapılmış malla necə rəftar etmək lazımdır

Cavab: Əgər tapılmış malın nişanəsi yoxdursa, vacib ehtiyata əsasən sahibi tərəfindən .sədəqə vermək lazımdır

Nişanəsi olan malın sahibi tapıldıqda dəyərindən asılı olmayaraq ona qaytarılmalıdır. Amma sahibi tapılmadıqda malın qiyməti on ikidə altı noxud

gümüş sikkəsindən ucuzdursa, onu götürmək olar. Qiyməti on ikidə altı noxud gümüş .sikkəsindən baha olan malı isə sahibi tərəfindən sədəqə vermək lazımdır

?Sual ۱۵۲: Bir şəxs tapılmış mala sahib durursa, malı ona vermək olarmı

Cavab: Əgər həmin şəxs malın nişanələrini deyirsə, malı ona vermək lazımdır. Amma .həmin şəxsdən diqqəti cəlb etməyən nişanələri tələb etmək olmaz

?Sual ۱۵۳: Tapılmış malı sahibi bilinənədək saxlamaq olmazmı

Cavab: Mal tapıldıqda ilk həftədə gündə bir dəfə, sonra bir ildə həftədə bir dəfə cəmiyyət arasında bu barədə e'lan etmək lazımdır. Əgər bir il ərzində malın sahibi tapılmasa, vacib ehtiyata əsasən mal həmin şəxs tərəfindən sədəqə verilməlidir və ya .sahibi üçün saxlanılmalıdır

?Sual ۱۵۴: Heyvan hansı qaydada kəsilməlidir

:Cavab: Heyvanın kəsilməsinin beş şərti var

Heyvanı kəsən şəxs müsəlman olmalıdır və peyğəmbər əhli-beyti ilə düşmənçiliyini .۱ ;izhar etməməlidir

;Heyvanın başı dəmir alətlə kəsilməlidir .۲

;Başı kəsilən heyvanın bədəni üzü qibləyə olmalıdır .۳

;Heyvanın kəsilməsi məqsədi ilə «Bismillah» deyilməlidir .۴

.Heyvan kəsildikdən sonra hərəkət etməlidir ki, diri olduğu bilinsin .۵

Sual ۱۵۵: Hansı heyvanları ovlamaq olar?

Cavab: Ovlanan heyvan ceyran və ya dağ keçisi kimi vəhşi olmalıdır, qaçmağa və ya uçmağa qadir olmalıdır, əti halal olmalıdır.

Sual ۱۵۶: Ovlanmış heyvanın əti nə zaman pak və halal sayılır?

Cavab: Ovlanmış heyvanın ətinin pak və halal olmasının beş şərti var:

۱. Ov silahı bıçaq və qılınc kimi kəsici və ya nizə və ox kimi parçalayıcı olmalıdır;

۲. Ovçu həddi-büluğ və yaxşını pisdən ayıra bilən yaşda müsəlman olmalıdır;

۳. Ov silahı və ov üçün istifadə olunmalıdır;

۴. Silah işə salınmazdan qabaq Allahın adı çəkilməlidir;

۵. Ovçu heyvana çatdığı zaman heyvan ölmüş olsa və ya heyvanı kəsməyə vaxt olduğu halda o kəsilmədən ölsə, haramdır.

Sual ۱۵۷: Hansı ətlər haramdır?

Cavab: Yeddi halda ət haram sayılır;

۱. Qızılquş kimi caynaqlı quşlar;

۲ Diri heyvandan qoparılmış ət parçası;

۳. İnsanın “vəty” etdiyi (cinsi yaxınlıq) heyvan;

۴. Pulsuz balıqlar;

۵. Donuz, dovşan, fil kimi əti haram heyvanlar;

۶. Qanadı çıxmadığından uça bilməyən çəyirtkə;

۷. Diri heyvanın qarnından çıxmış ölü bala.

Sual ۱۵۸: Əti halal olan heyvanlarda nələri yemək haramdır?

Cavab: Əti halal olan heyvanlarda on beş şeyin yeyilməsi haramdır: ١. Qan; ٢. Peyin; ٣. Tənasül üzvü, (erkək heyvanda); ۴. Sidik məxrəci (dişi heyvanda); ۵. Vacib ehtiyata əsasən balalıq; ۶. Vəzilər (təbii olaraq heyvanlarda ١٠ ədəd vəzi mövcuddur: ٢ ədəd boğaz nahiyəsində, ٢ ədəd kürək sümüklərinin altında, hər iki tərəfdə üç dənə olmaqla ۶ ədəd də bud və paçalarda. Lakin qeyri-təbii olaraq ona bədənin müxtəlif nahiyələrində də rast gəlinir); ٧. Xayalar; ٨. Kəllə beyində yerləşən noxudcuq; ٩. Onurğa sütunu arasında yerləşən ilik; ١٠. Onurğa sütununun iki tərəfində yerləşən "şah damar" (xəmirçək) ; ١١. Öd kisəsi; ١٢. Dalaq; ١٣. Sidik kisəsi; ١۴. Gözün hədəqəsi; .١۵. Dırnaqarası piy

?Sual ١۵٩: At əti halaldırmı

.Cavab: At, eşşək və qatır əti məkruhdur

?Sual ١۶٠: Yemək zamanı nələr müstəhəbdir

Cavab: Yeməkdən qabaq hər iki əli yumaq, yeməkdən sonra əlləri yumaq və qurulamaq, ev sahibinin hamıdan qabaq yeməyə başlayıb hamıdan sonra qurtarması, yeməkdən qabaq «Bismillah» demək, sağ əllə yemək, üç və ya çox barmaqla yemək, çox adamın oturduğu süfrədə öz qarşısından yemək, tikələri kiçik götürmək, süfrədə çox oturub yeməyə tələsməmək, yeməyi yaxşı çeynəmək, yeməkdən sonra aləmlərin Rəbbinə həmd etmək, barmaqları yalamaq, yeməkdən sonra dişləri təmizləmək, süfrədən kənara səpələnən qidanı yığıb yemək, günün başlanğıcında və gecənin başlanğıcında yemək, yedikdən sonra arxası üstə uzanıb sağ ayağı sol ayağın üstünə aşırmaq, yeməyi

.duzla başlayıb duzla qurtarmaq, meyvə yeməkdən qabaq onu yumaq

dən ۱۷۰ kimi olan suallar–۱۶۱

?Sual ۱۶۱: Yemək yeyərkən nələr məkruhdur

Cavab: Tox halda yemək, çox yemək, yemək zamanı başqalarının üzünə baxmaq, qaynar yemək, yeməyi və içkini üfürmək, süfrəyə çörək qoyulduqdan sonra başqa şeyləri gözləmək, çörəyi bıçaqla kəsmək, çörəyi yemək qabının altına qoymaq, əti .sümükdən tam təmizləmək, meyvəni soymaq, meyvəni tam yeməmiş atmaq

?Sual ۱۶۲: Su içərkən nələr məkruhdur

Cavab: Suyu çox içmək, yağlı xörəkdən sonra su içmək, gecə ayaq üstə su içmək, sol .əllə su içmək, qabın sınıq yerindən və tutacağı tərəfdən içmək

?Sual ۱۶۳: Su içərkən nələr müstəhəbdir

Cavab: Suyu soraraq içmək, gündüz suyu ayaq üstə içmək, su içməzdən qabaq «Bismillah» sonra isə «Əlhəmdulillah» demək, suyu üç nəfəsə içmək, susayıb içmək, suyu içdikdən sonra İmam Hüseyn (ə) və onun əhli-beytini yad etmək və onların qatillərinə .lə’nət oxumaq

?Sual ۱۶۴: Nəzir nədir

Cavab: İnsan özünə vacib edir ki, Allah xatirinə bir xeyir iş görsün və ya Allah xatirinə .bəyənilməmiş bir işi tərk etsin

?Sual ۱۶۵: Hansı nəzirlər düzgün deyil

:Cavab: Beş halda edilən nəzir batildir

;Məcburi şəkildə nəzir etmək .۱

;Əsəbi şəkildə ixtiyarsız olaraq nəzir etmək .۲

;Ərdən icazəsiz qadının nəzir etməsi .۳

;Mümkünsüz işləri nəzir etmək .۴

Haram və məkruh işin görülməsinin, vacib və müstəhəb işin tərk edilməsinin nəzir .۵
.olunması

?Sual ۱۶۶: And neçə növdür

?Cavab: And iki növdür

.Yaxşı bir işə görə içilən and. Məsələn, oruc tutmaq .۱

.Pis bir işi tərk etmək üçün içilən and. Məsələn, siqareti tərk etmək .۲

?Sual ۱۶۷: Hansı andları pozduqda kəffarə vermək vacibdir

Cavab: Bilərəkdən ixtiyari şəkildə andı pozmağın kəffarəsi var. Andını pozan şəxs ya .bir bəndə azad etməli, ya on fəqiri doydurmalı, ya da üç gün oruc tutmalıdır

?Sual ۱۶۸: Həqiqi andın neçə şərti var

Cavab: And içən şəxs həddi-büluğ, ağıllı olmalı, şər'i hakim ona öz malını sərf etməyi .qadağan etməməlidir. And məqsədi və azad şəkildə içilməlidir

Hansı işin görüləcəyinə and içilirsə, həmin iş haram və ya məkruh olmamalıdır. Vacib .və ya müstəhəb bir işi tərk etmək üçün and içmək olmaz

.«!Allahın müqəddəs zatından qeyrisinə and içmək olmaz. Məsələn: «And olsun Allaha

Andı yazmaq və ya qəlbdən keçirmək olmaz. And dilə gətirilməlidir. Amma lal adam .işarə ilə and içə bilər. Anda əməl etmək mümkün olmalıdır

?Sual ۱۶۹: And içmək nə dərəcədə düzgündür

Cavab: Doğrudan and içmək məkruh, yalandan and içmək isə haram və böyük günahdır. Amma insan özünü və ya bir müsəlmanı zalımın şərindən qurtarmaq üçün .and içərsə, eybi yoxdur. Bə’zən belə hallarda and içmək vacib olur

?Sual ۱۷۰: Vəqf nə deməkdir

Cavab: Vəqf müsəlmanın sahib olduğu bir şeyi öz mülkündən çıxararaq, birdəfəlik ümumi istifadəyə verməsidir. Vəqf edərkən vəqf siğəsi oxumaq vacib deyil. Vəqf edən şəxsin «bu şeyi vəqf etdim» deməsi kifayətdir. Vəqfin öz tə’yinatı var. Məsələn, .hüseyniyyə üçün vəqf olunmuş xalçanı məsciddə istifadə etmək olmaz

dən ۱۸۰ kimi olan suallar–۱۷۱

?Sual ۱۷۱: Vəsiyyət nədir

Cavab: Vəsiyyətdə insan sifariş edir ki, onun ölümündən sonra onun üçün hansısa işlər görülsün. Məsələn, insan vəsiyyət edə bilər ki, onun ölümündən sonra malik olduğu .kitablar kitabxanaya verilsin. İnsan öz malının yalnız üçdə birini vəsiyyət edə bilər

?Sual ۱۷۲: Ağlını itirmiş adam vəsiyyət edə bilərmi

Cavab: Vəsiyyət edən şəxs ağıllı, həddi-büluğ, azad, malını sərf etməkdə ixtiyar sahibi .olmalıdır

?Sual ۱۷۳: İrs varislər arasında necə bölünür

Cavab: Əgər varis bir nəfərdirsə (məsələn, oğul və ya qız) meyitin bütün malı ona çatır. Əgər varis bir neçə oğul, yaxud bir neçə qızdırsa, meyitin malı onların arasında .bərabər bölünməlidir

Əgər varis bir oğlan və bir qızdırsa, mal üç hissəyə bölünür. Onun iki hissəsi oğula, bir .hissəsi isə qıza verilir

Əgər varis bir neçə oğlan və bir neçə qızdırsa, mal elə bölünür ki, oğlanlar qızlardan iki .qat artıq irs alsınlar

Əgər oğuldan ata-anaya irs qalmışsa, bu irs üç hissəyə bölünür, iki hissəsi ataya, bir .hissəsi anaya çatır

Əgər vəfat edənin ata-anası, bacı və qardaşı qalmışdırsa, irs dörd hissəyə bölünür, .ata-ananın hərəsinə bir pay verilir, oğula qızdan iki qat artıq pay bölünür

?Sual ١٧۴: Meyitin borcu ödənməlidirmi

Cavab: Dünyasını dəyişmiş atanın Qur’anı, üzüyü, qılıncı və libası böyük oğula çatır. Əgər meyitin var-dövləti mövcud borcu ödəmirsə, oğula çatan şeylər də onun .borclarına verilir

?Sual ١٧۵: Qızlar və qadınlar sırğa taxmaq üçün qulaqlarını deşə bilərlərmi

Cavab: Qızlar və qadınların sırğa taxmaq məqsədi ilə qulaqlarını deşməsinin eybi .yoxdur

?Sual ١٧۶: Naməhrəm qadınla söhbət etmək olarmı

.Cavab: Əgər ləzzət məqsədi olmasa, eybi yoxdur

?Sual ١٧٧: Ruhani olmayan ədalətli bir şəxs pişnamaz dayana bilərmi

.Cavab: Ruhani yoxdursa, olar

?Sual ١٧٨: Üzü ülgüclə və ya ülgüc kimi tükü dibdən vuran maşınla qırxmaq olarmı

.Cavab: Vacib ehtiyata əsasən, bu işi tərk etmək lazımdır

Sual ١٧٩: Bir gənc beş ildən sonra evlənəcəyini nəzərdə tutaraq ev tikmək üçün pul ?yığsa, bu pula xüms düşürmü

Cavab: Əgər ehtiyacı olacağı anda ev ala bilməyəcəksə, tədricən aldığı tikinti materiallarının xümsünü

.verməməlidir. Əgər ev tikmək məqsədi ilə pul yığsa, ötən illər üçün xüms ödənməlidir

?Sual ۱۸۰: Hansı qadınlarla evlənmək məkruhdur

Cavab: İnsanın zinakar, zinadan doğulmuş qadınlarla, eləcə də doğuş zamanı onu .tutmuş mama və mamanın qızı ilə evlənməsi məkruhdur

dən ۱۹۰ kimi olan suallar–۱۸۱

?Sual ۱۸۱: Kişiyə kimlər məhrəm sayılır

Cavab: Kişiyə məhrəm olan qadınlar yeddi qisimdir: Ana (nənə) qız (qız nəvələri), bacı, bacının qızı və nəvələri, qardaşın qızı və nəvələri, bibi (atanın və ananın bibiləri), xala ((atanın və ananın xalaları

?Sual ۱۸۲: Kafirlə evlənmək olarmı

Cavab: Müsəlman qadın kafir kişiyə ərə gedə bilməz, müsəlman kişi kafir qadınla evlənə bilməz. Amma müsəlman kişi kitab əhli olan qadınla müvəqqəti nikaha girə .bilər

?Sual ۱۸۳: Kişinin qadın qarşısında hansı vəzifələri var

Cavab: Kişi öz arvadını yemək və geyimlə tə’min etməlidir. Qadının bilmədən yol verdiyi səhvləri bağışlamalıdır. Ər öz arvadı ilə xoş keçinməlidir. Gecələr qadını tək qoymamalıdır. Ər öz qadını ilə cinsi yaxınlığı dörd aydan çox tərk edə bilməz. Əgər bir kişinin bir neçə arvadı olarsa, öz vaxtını qadınlar arasında bərabər bölməlidir. Arvadı .olan kişi bakirə qızla evlənərsə ilk yeddi gecəni onunla qalmalıdır

?Sual ۱۸۴: Hamilə ola bilməyən qadın tibbi yolla özünü hamilə edə bilərmi

.Cavab: Süni hamiləlik yalnız qadının öz ərinin sperması ilə aparıla bilər

?Sual ۱۸۵: Oğlanın sünnət (xətnə) edilməsi vacibdirmi

Cavab: Oğlanın xətnə edilməsi vacibdir. Müstəhəbdir ki, oğlan uşağı yeddi günlüyündə .xətnə edilsin

?Sual ۱۸۶: Əqiqə nədir

Cavab: Əqiqə yeni doğulmuş körpə üçün yerinə yetirilən müstəhəb bir işdir. Müstəhəbdir ki, yeni doğulmuş qız uşağı üçün dişi heyvan, oğlan uşağı üçün erkək heyvan əqiqə edilsin. Əqiqə, körpənin yeddi günlüyündə edilsə yaxşıdır. Həddi-büluğa qədər əqiqə edilməmiş insan müstəhəbdir ki, özü özü üçün əqiqə etsin. Hətta insan diri olduğu vaxt əqiqə edilməmişsə müstəhəbdir ki, ölümdən sonra onun üçün əqiqə edilsin. Əqiqə qoyun, inək və ya dəvə ola bilər. Əqiqə heyvanın dörddən birini uşağı tutmuş mamaya vermək müstəhəbdir. Əqiqə edilmiş heyvanın əti on mö’min bəndə .arasında bölünsə yaxşı olar

?Sual ۱۸۷: Körpəyə neçə müddət süd əmdirilməlidir

Cavab: Körpəyə tam iki il (azı ۲۱ ay) süd əmdirilməlidir. İmkan olduğu halda bu müddəti .azaltmaq olmaz

?Sual ۱۸۸: Ailə üzvlərinin tə’minatı kimin öhdəsinədir

Cavab: Övladların xərcini ata ödəməlidir. Ata imkansız olduqda bu xərci baba ödəməlidir. Baba imkansız olduqda uyğun xərci ödəmək atanın babasının vəzifəsidir. Atanın babası imkansız olduqda xərc ananın öhdəsinədir. Ana da imkansız olduqda övladların xərcini ananın atası ödəməlidir. Ananın atası imkansız olduqda bu xərci atanın anası öz öhdəsinə götürməlidir. Atanın anası imkansız olduqda övladların xərci ananın babasının öhdəsinədir. Ananın babası imkansız olduqda övladların xərcini .ananın nənəsi ödəməlidir

?Sual ۱۸۹: Öhdəsində olan heyvanı doydura bilməyən şəxs nə etməlidir

Cavab: Əgər bir şəxs malik olduğu heyvanı lazımınca yedirdə bilmirsə, ya onu satmalı, .ya da əti halal olduqda kəsməlidir

?Sual ۱۹۰: Qur’anda nələrlə qidalanmaq haram buyurulmuşdur

Cavab: Qur’anda dörd şeylə qidalanmaq haram buyurulmuşdur: ölmüş heyvanla, .qanla, donuz əti ilə, Allahdan qeyrisinin adına kəsilmiş heyvanla

dən ۲۰۰ kimi olan suallar–۱۹۱

?Sual ۱۹۱: İtin ovladığı heyvanın əti halaldırmı

Cavab: Yalnız ov itlərinin ovladığı heyvanın əti halaldır. Ov itinin dişləyib öldürdüyü heyvanı kəsməyə (zibh) ehtiyac yoxdur. Çünki itin vurduğu yara kəsilməyə bərabərdir. Ov itinin şərtlərindən biri budur ki, tutduğu ovu sahibi çatanadək yeməsin. İt özbaşına yox, sahibinin əmri ilə ov etməlidir. Əgər it, sahibinin göstərişi olmadan bir heyvanı ovlasa, həmin heyvanın əti halal deyil. Sahibin əmri ilə itin ovladığı heyvan halal sayılır. Ovçu itə əmr edərkən «Bismillah» deməlidir. Əgər bilərəkdən «Bismillah» deməsə .ovlanmış heyvanın əti halal deyil

Sual ۱۹۲: Bir ovçunun qovaraq vurduğu və ya yaraladığı heyvanı başqa biri tutsa, ovun ?sahibi kim sayılmalıdır

Cavab: Ov onu tutana məxsusdur. Əgər qovulan heyvan bir evə daxil olarsa, onun .sahibi ev yiyəsidir

?Sual ۱۹۳: Balıq necə ovlanır

Cavab: Balıq hansı vasitə ilə ovlanır ovlansın, sudan diri vəziyyətdə çıxarılmalıdır. Əgər .balığı dalğa vurub sahilə çıxararkən onu diri halda tutmaq mümkün olsa, halaldır

?Sual ۱۹۴: Heyvan kəsərkən hansı işlər məkruhdur

Cavab: Heyvanın ruhu xaric olmamış onun dərisini soymaq məkruhdur. Hətta bə’ziləri bunu haram da saymışdır. Zibh zamanı heyvanı öz həmnövünün gözü

qabağında kəsmək, heyvanı gecə və cümə günü günortadan qabaq kəsmək, insanın .öz əli ilə böyütdüyü heyvanı kəsməsi məkruhdur

?Sual ۱۹۵: Maşınla kəsilmiş heyvan haramdırmı

Cavab: Maşınla kəsilmiş heyvan murdardır. Onun ətini yemək, almaq və satmaq caiz .deyil

?Sual ۱۹۶: Balıq kürüsünü yemək halaldırmı

Cavab: Balıq kürüsünün halal-haramlığı balığın növündən asılıdır. Əgər balıq özü .haramdırsa, onun kürüsü də haramdır

?Sual ۱۹۷: Hansı quşların əti haramdır

Cavab: Caynaqlı (yırtıcı) quşların əti haramdır. Bundan əlavə, əksər halda (uçarkən) .qanad çalmayıb süzən, çinədansız, mahmızsız quşların da əti haram sayılmışdır

?Sual ۱۹۸: Əti halal olan heyvan hansı halda haram sayılır

Cavab: Əgər əti halal olan heyvanın balası böyüyənədək, sümükləri möhkəmlənənədək donuz südü ilə qidalanarsa, onun əti haramdır. Hətta həmin .heyvandan törəyən heyvanların da əti haram sayılır

Sual ۱۹۹: Halal və ya haram olduğu bilinməyən balıqdan hazırlanmış balıq unu ilə ?cücələri yedirtmək olarmı

.Cavab: Eybi yoxdur

?Sual ۲۰۰: Müsəlmanla qeyri-müsəlman arasında «qan köçürmə»yə icazə verilirmi

.Cavab: Eybi yoxdur

Sual: Uduzanın dondurma, limonad və bu kimi sair şeylər alacağı şərti ilə futbol ?oynamaq olarmı

.Cavab: Deyilən halda futbol oynamaq qumar sayılır

?Sual: Musiqi haramdırmı

.Cavab: Mütrib musiqi haramdır və mütrib musiqini öyrənmək və öyrətmək caiz deyil

?Sual: Böyük günahlar hansılardır

Cavab: Əzab və’d olunmuş günahlar. Onlar çoxdur və bir qismini nəzərdən keçirək: ١. Allahın rəhmətindən ümidi üzmək; ٢. Özünü Allahın cəzasından amanda bilmək; ٣. Allahın, Peyğəmbərin (s), mə’sum imamların adından yalan demək; ۴. Nahaqdan kimsəni qətlə yetirmək; ۵. Ata-ananı incitmək; ۶. Yetimin malını zorla yemək; ٧. Sehr və cadu; ٨. Zina; ٩. Livat; ١٠. Oğurluq; ١١. Yalandan and; ١٢. Yalandan şahid durmaq; ١٣. .Əhdi sındırmaq; ١۴. Vəsiyyətə əməl etməmək və s

səh:۵٩

Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər sürəsi, ayə ٩

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ٢٠٠۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cərəyanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.١

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.٢ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .٣ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.١

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.۲
.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.۳
.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴
.Nəşriyyatın mənbələrini qeyd etmək.۵
.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir
:Müəssisənin fəaliyyəti
.Kitabların çapı və nəşri.۱
.Kitab oxumaq müsabiqələrinin təşkili.۲
.Məcazi sərgilərin istehsalı.۳
.Kompüter oyunlarının istehsalı.۴
Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵
.Sərgi məhsullarının və moizələrin istehsalı.۶
.Şər'i,əxlaqi və etiqadi suallara cavab.۷
.Mühasibat,mətbuat yaratmaq və sms... sistemlərinin layihəsi.۸
.Təlim kurslarının həyata keçirilməsi.۹
Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.۱۰
Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.۱۱ dünyada məşhur olan səkkiz formada istehsalı
JAVA.۱
ANDROID.۲
EPUB.۳
CHM.۴
PDF.۵
HTML.۶
CHM.۷
GHB.۸
.v.Qaimiyyə kitab bazarı adına dörd market
ANDROID.۱
IOS.۲
WINDOWS PHONE.۳
WINDOWS.۴
deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik

:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹


İsfəhan Qaimiyyə kompüter
araşdırmalar mərkəzi
Qaimiyyə
www
Başqa kitabxanaya sahiblənmək üçün
gördüyünüz sayt mərkəzinə müraciət
etməniz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098)0913 2000 109